Xalqın qəzeti!

# Xalq qəzeti

№ 226 (30342) 17 oktyabr 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# Qarabağda bayraqlarımızın paradı

## Prezident İlham Əliyevin Xankəndi şəhərinə, Tərtər, Şuşa, Xocalı, Xocavənd və Ağdam rayonlarına səfəri

## Suqovuşanda istirahət parkının açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Tərtər rayonuna səfər edib.**

Dövlətimizin başçısı Tərtər rayonunun Suqovuşan qəsəbəsində istirahət parkının açılışında iştirak edib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev istirahət parkında görülən işlər barədə dövlətimizin başçısına məlumat verdilər.

Bildirildi ki, 1970-ci illərdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə tikilən Suqovuşan su anbarının ətrafında yaradılan parkda əhalinin asudə vaxtının səmərəli təşkili üçün sahilboyu gəzinti cığırları salınıb, oturacaqlar, söhbətgahlar, uşaqlar üçün əyləncə meydançası, idman qurğuları quraşdırılıb. Ərazisi 7,5 hektar olan parkda, həmçinin turist informasiya mərkəzi, kafe, üzən estakada, turistlərə xidmət göstərəcək nəqliyyat vasitələri üçün avtodayanacaq yaradılıb. Burada geniş yaşıllaşdırma işləri görülüb, 5 minə yaxın ağac və kol əkilib.

*(ardı 2-ci səhifədə)*

## Xankəndi manifesti – 20 ilin qürur və fəxarət salnaməsi

**“Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu qələbəyə layiqik. Azərbaycan xalqı bu qələbəni öz qanı-canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”**



Bu fikirləri Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaldarkən etdiyi çıxışında səsləndirib. Dövlətimizin başçısının çıxışında söylədiyi hər fikir böyük və şanlı tariximizin təntənə anının yaşantısı olmaqla yanaşı, eyni zamanda, özlüyündə bir tarix dərsidir. Hesab edirik ki, dərsdən düşmənlərimiz kimi, biz özümüz də nəticə çıxarmalıyıq. Əlbəttə, bu dərsin möhtəşəmliyini tam mənada anlamaq, dərk etmək üçün zamana ehtiyacımız var. Heç şübhəsiz, əlahəzrət zaman Prezident İlham Əliyevin Azərbaycan tarixindəki müstəsna yeri və rolunu daha dolğun şəkildə qiymətləndirəcək. Elə 15 oktyabr tarixinin yeri və rolunu da şübhəsiz. Daha doğrusu, zamanın 2003-cü ilin 15 oktyabrından 2023-cü ilin 15 oktyabrına gedən yolun hər anına, hazırda xalqımızın bu mərhələni qiymətləndirdiyi alilik mərtəbəsinə özünün, belə demək mümkünsə, daha şəffaf boyaları ilə rəng qatmasına ehtiyac var.

*(ardı 8-ci səhifədə)*

## TÜRKSOY-un 30 illiyinə həsr olunmuş təntənəli tədbirin iştirakçılarına

**Hörmətli xanımlar və cənablar!**

Sizi Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının – TÜRKSOY-un yaradılmasının 30-cu ildönümü münasibətilə Bakıda keçirilən təntənəli mərasimdə ürəkdən salamlayıram.

Türk dünyası öz qədim və möhtəşəm mədəniyyəti ilə bəşər sivilizasiyası tarixinə iftixar dolu parlaq səhifələr yazmışdır. Türk xalqları şanlı keçmişlərindən güc alaraq zamanın sınaqlarından daim alnıaçıq çıxmış, günümüzədək milli mədəni özünəməxsusluğu qoruyub saxlamışlar. Misilsiz zənginliyi ilə seçilən ümumtürk mədəni irsinin mühafizə olunması, bu böyük sərvətin gələcək nəsillərə çatdırılması və dünyaya tanıdılması işində TÜRKSOY qardaş türk ölkələri arasında yaradılan ilk beynəlxalq qurum kimi ötən müddətdə təqdirəlayiq xidmətlər göstərmişdir.

Məhz TÜRKSOY-un təşkilatçılığı və bilavasitə iştirakı ilə ənənəvi şəkil alan layihələr, müntəzəm keçirilən mədəniyyət günləri, incəsənət festivalları, həmçinin Türk dünyasının şah əsərlərinin, əlamətdar tarixi-mədəni hadisələrinin və görkəmli şəxsiyyətlərinin təntənə ilə qeyd olunan yubileyləri türk xalqları arasında qarşılıqlı əlaqələri dərinləşdirmiş və möhkəmlətmişdir. Təşkilat üzv ölkələrin mədəniyyət və incəsənət xadimlərinin yaxınlaşması üçün bu gün də var qüvvəsini əsirgəmir. Onun fəaliyyəti türk dövlətləri rəhbərlərinin bütün zirvə toplantılarında, dövlət və hökumət başçılarının birgə bəyannamələrində həmişə yüksək qiymətləndirilmişdir.

Ortaq türk mirasının qorunması və təbliği ilə bağlı gerçəkləşdirdiyi irimiqyaslı layihələrlə Azərbaycan TÜRKSOY-a hər zaman dəstəyini ifadə etmiş, türkdilli ölkələrin mədəni inteqrasiyasının geniş vüsət almasına çalışmışdır. Təşkilatla respublikamız arasında əməkdaşlıq münasibətləri hazırda ən yüksək səviyyədədir. Şuşa şəhərinin 2023-cü ildə “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumunun və “TÜRKSOY Mədəniyyət Günləri”nin keçirilməsi bu istiqamətdə birgə səylərimizin bariz göstəriciləridir.

Türk dünyası birliyinin daha da möhkəmləndirilməsi və müştərək mədəni-mənəvi dəyərlərimizin layiqincə qorunub yaşadılması yolunda hər birinizə yeni-yeni uğurlar arzulayıram.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 14 oktyabr 2023-cü il**



## Dualarımızın Tanrı dərgahına qovuşduğu gün

**Həqiqətən, baş verənlər insana yuxu kimi gəlir. Xüsusən də yaşlı və orta nəslin nümayəndələrinə. Söhbət Azərbaycan Bayrağının Xocavənddə, Xocalıda, Əsgəranda, Ağdərədə və nəhayət, Xankəndidə dalğalanmasından gedir. Ancaq gözlərimizi ovuşdurub diqqətlə baxırıq. Bəli bayrağımızı ucaldan odur – Azərbaycan Prezidenti, Silahı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev. Deməli, gördüklərimiz yuxu deyilmiş.**

Dövlətimizin başçısının Xankəndidəki geniş və məzmunlu çıxışını dinlədikdə xatirələr ötən əsrin sonlarına doğru apardı. O dövrə ki, erməni avantürizmi yenicə baş qaldırmışdı. “Miatsum” ideoloqlarından olan Abel Aqanbekyanın fikirləri Azərbaycan cəmiyyətində sanki partlayış effekti yaratmışdı. Topxana meşəsinin qırılması, ardınca xalq hərəkatı, nəhayət, 20 Yanvar faciəsi. Bəlalarımız sanki başımıza gəlmək üçün sıraya düzülmüşdü. Bizi aşağılamağa, mənliyimizi sındırmağa, heysiyyətimizə toxunmağa hesablanmış bəlalar...

Dərd insanları birləşdirir, deyiblər. Amma, nədənsə, biz birləşə bilmirdik. Ötən əsrin 90-cı illərinin əvvəllərində xalqımız yeni bəlalara, sanki hamilə idi. Nəhayət, doğuldu o bəlalar. Torpaqlarımız işğala məruz qaldı, yurd yerlərimiz xarabazara çevrildi. Üstəlik, bu miskin mənzərəni tamamlayan durum yaşandı – bir milyondan çox vətəndaşımız qaçqına və məcburi köçkünə çevrildi. Dəhşət idi. İnsanın öz evindən, yurdundan-yuvasından zorla çıxarılması, doğulub boya-başa çatdığı doğma diyarın havasından uda, suyundan içə bilməməsi, hər şeydən məhrum olması təsviri mümkünsüz olan dəhşət.

Ancaq bizi təkcə dərd deyil, həm də, o, birləşdirdi – Ulu öndər Heydər Əliyev. Birləşdirmə milli qürur və ləyaqətin, mənlik şürunun təbliği fonunda baş verdi. Bu böyük şəxsiyyət hər çıxışında “Qarabağ” deyərək hayqırdı. O hayqırtıda bir Vətən övladının haqsızlıqla barışmazlıq ruhu var idi. Elə bir ruh ki, özündə varisliyi şaxələndirdi. Varislik prinsipi İlham Əliyevin şəxsində özünün ən ali mərhələsinə çatdı. Dünyada görünməmiş mərhələsinə. İlham Əliyev Ulu öndərin başladığı yolun davamına, xüsusən Qarabağ uğrunda mübarizəni sona çatdırmağa sahiblik əzmini yaşatdı. Nəinki yaşatdı, habelə bu miras üçün yeni savaş platforması müəyyənləşdirdi.

Prezident İlham Əliyev Ümummilli Liderin Qarabağ uğrunda mücadilənin məfkurəvi xəttini zənginləşdirməklə yanaşı, əməli fəaliyyəti ilə həm yuxu kimi görünən xəyalların gerçəkləşəcəyinə xalqda dərin inam hissini aşıladı, həm də bunun üçün baza formalaşdırdı. Səbr və təmkinlə gördü hər işini. Bu mənada, dövlətimizin başçısının prezidentliyinin iyirmi ilini həm də səbr və təmkinin qələbəyə doğru aparan mərhələsi də adlandırmaq mümkündür. Buna necə dözdü, necə tab gətirdi? İnanılmazdır...

Bəli, qətiyyətlə söyləyə bilərik ki, bu gün tarixi anların şahidləriyik. Qarabağ, Xankəndi heç vaxt indiki qədər Azərbaycanın olmayıb. Son iki yüz ildə heç vaxt bu qədim diyarımızın bizə məxsusluğunun xoşbəxtliyini bugünkü qədər yaşamamışıq. Bəlkə itirməyincə qədrini bilməmişik əlimizdə olanların? Bəlkə düşünməmişik ki, nə zamansa onları itirə bilərik? Halbuki, düşünməli idik. Axı, İrəvan, Göyçə Zəngəzur itkisinin ağırlığını duymuşuq! Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda da fikirləşməli, özümüzdə müqavimət hissi formalaşdırmalı idik. Axı, yurd yerlərimizə sevgimiz təkcə mahnılarda, şeirlərdə, tablolarda yaşayacaq mövzu deyil. Axı, doğma yurda sahiblik əzmkarlıqdır, ali ruh işidir.

Qətiyyətlə deyə bilərik ki, İlham Əliyevin liderliyi xalqımıza Heydər Əliyevin aşıladığı Qarabağ ruhunu doğmalaşdırdı. Dövlətimizin başçısı oktyabrın 15-də Əsgəranda, Ağdərədə, Xocalıda, Xocavənddə, Sərsəng su anbarında və Xankəndidə ucaltdığı ay-ulduzlu, üçrəngli bayrağımızı sanki bu qədim yurd yerlərimizin üzərinə qoruyucu qalxan kimi sərdi. Bu, misli görünməmiş sahiblənmə nümunəsidir. Bu bayraq ucalığı əbədilik təminatıdır, bəlalara, dərdlərə, acılara qarşı immunitetdir, dirənişdir.

Bu dirənişin təsvirini sözlə ifadə etmək müşküldür. Gözlərimiz önündə tarix yazılır. Tarixə layiqli qiymət üzərindən illər keçdikdən sonra verilir və veriləcək də. Heç şübhəsiz, tariximiz İlham Əliyev nəhəngliyinə dəyərini daha səlis notlarda göstərəcək. Hələlik yaşantılarımıza dalırıq və bu zaman şair Elçin Mirzəbəylinin “Kabus qatar” şeirindən bu bənd yada düşür:

*İndi bütöv elim – bütöv taleyim,*
*Dünyanın ən gözəl ölkəsindəyəm.*
*Ən uca zirvəyə könül bağlayan*
*Üçrəngli bayrağın kölgəsindəyəm.*

Bəli, iki əsrlik niskil yaşantımız başa çatıb. Oktyabrın 15-də dövlət başçımızın Xankəndidəki çıxışında səsləndirdiyi fikirlər yalnız ərazi bütövlüyümüzün və suverenliyimizin yox, eyni zamanda, milli qürur və ləyaqətimizin bərpasının ən xoş müjdəsi oldu. Tariximizi isə unutmağa haqqımız yoxdur. Bundan sonra heç yoxdur. Çünki yuxular heç də hər zaman gerçək olmur. Çox şükür ki, çin oldu. Prezident, müzəffər Ali Baş Komandan, ordumuz var olsun! Uca Tanrı Vətənimiz Azərbaycanı qorusun! Amin!

**Əflatun AMAŞOV,**
**baş redaktor**

# Suqovuşanda istirahət parkının açılışı



**(əvvəli 1-ci səhifədə)**

Xatırladaq ki, Suqovuşan istirahət parkının təməli 2022-ci il martın 20-də Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Həmçinin məlumat verildi ki, Suqovuşanda turizm infrastrukturunun yaradılması prosesinin ikinci mərhələsində yeni körpünün inşası, tarixi körpünün və ərazidəki məbədin, eləcə də məbədin ətrafındakı tarixi tikililərin konservasiyası, mövcud Bayraq meydanının parka adaptasiyası həyata keçiriləcək, genişmiqyaslı abadlıq işləri görüləcək.

Bildirildi ki, 1898-ci ildə inşa edilmiş məbəd Qarabağ zonasında ənənəvi alban dini memarlıq məktəbinin elementlərini özündə ehtiva edir. O, yerli əhəmiyyətli abidə kimi dövlət tərəfindən mühafizə olunur.

Həmçinin qeyd edildi ki, Suqovuşan qəsəbəsinin yerləşdiyi ərazi tarixən Qafqaz Albaniyasının tərkibinə daxil olmuş, onun sosial-mədəni və hərbi-siyasi tarixində önəmli yer tutmuşdur. Bu baxımdan qəsəbənin yaxınlığında yerləşən müqəddəs Yelisey monastırının Qafqaz Albaniyasının hökmdarı III Mömin Vaçaqanın adı ilə bağlı olması təsadüfi deyil.

Belə geniş ərazidə təməlqoyma mərasimindən ötən qısa müddət ərzində gözoxşayan istirahət parkının yaradılması olduqca füsunkar, bənzərsiz təbiəti olan və tarixi abidələrlə zəngin Qarabağ bölgəsinin tezliklə Azərbaycanın əsas turizm zonalarından birinə çevriləcəyini sübut edir.

# Suqovuşan Su Anbarı istifadəyə verildi





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Tərtər rayonunda Suqovuşan Su Anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasimində iştirak edib.**

Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Azərbaycan Prezidentinə görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Suqovuşan Su Anbarı və magistral kanallar 1976-cı ildə istismara verilib. Su anbarının ümumi su tutumu 5,86 milyon kubmetrdir. Bəndin üstdən uzunluğu 630 metr, hündürlüyü 28 metr, eni isə 10 metrdir.

Dövlətimizin başçısı su anbarında görülən işlərə dair videoçarxa baxdı.

Su anbarının yerləşdiyi ərazi 28 il işğal altında olduğundan Tərtər rayonunda 24,5 min, Ağdərə ərazisində 14,4 min, Goranboy rayonunda 7 min, Yevlax rayonunda 5,9 min, Bərdə rayonunda 12,6 min, Ağdam rayonunda 30 min, Ağcabədi rayonunda 2 min hektar olmaqla, ümumilikdə, 96 min hektardan çox torpaq sahəsinin su təminatında ciddi çətinliklər yaranmışdı. Su anbarında aparılan təmir-bərpa işləri həmin torpaq sahələrinin suvarılması işinin yaxşılaşdırılmasını təmin edəcək.

Prezident İlham Əliyev Suqovuşan Su Anbarını işə saldı.

Qeyd edildi ki, Tərtərçay və Turağayçay çaylarından daxil olan sular su anbarında tənzimlənərək, ümumi suburaxma qabiliyyəti saniyədə 70 kubmetr olan əsas magistral kanala, başlanğıcdan 5,2 kilometr sonra isə hər birinin suburaxma qabiliyyəti saniyədə 50 və 20 kubmetr olan sağ sahil və sol sahil magistral kanallarına verilir.

Bildirilib ki, su anbarında yeni inzibati bina və gözətçi binası, təmir emalatxanası və nasosxana tikilib.



# Azərbaycanın Dövlət Bayrağı Sərsəng Su Anbarında ucaldıldı





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Sərsəng su anbarının ərazisində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.**

Sonra dövlətimizin başçısı su anbarının ərazisinə baxdı.

Qeyd edək ki, mühüm strateji əhəmiyyətə malik Sərsəng Su Anbarı Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilib. 1976-cı ildə Ümummilli lider Heydər Əliyev Su Anbarının açılışında şəxsən iştirak edib.

Sərsəng su anbarı Azərbaycanın ən bolsulu çaylarından olan Tərtərçayın üzərində yerləşir. Ümumi həcmi 560 milyon kubmetr olan su anbarı Qarabağ iqtisadi rayonunun ən iri su hövzəsidir. Bəndin hündürlüyü 125, uzunluğu 555, eni isə 10,2 metrdir. Sərsəng Su Anbarı vasitəsilə Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Yevlax və Goranboy rayonlarında, ümumilikdə, 96 min hektardan çox ərazi suvarılır. Su anbarının bəndində ümumi gücü 50 meqavat olan su elektrik stansiyası tikilib.

# Dövlət Bayrağımız azad Ağdərədə

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.**



Sonra dövlətimizin başçısı əraziyə baxdı.

Qeyd edək ki, Ağdərə şəhəri 1993-cü il iyunun 27-də işğal olunub. Bu il sentyabrın 20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Ağdərə şəhəri separatçılardan təmizlənib.



# Prezident İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb. Dövlətimizin başçısı burada çıxış edib.**

## Prezident İlham Əliyevin çıxışı

– Əziz həmvətənlər.

Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.

Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür!" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək.

İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır.

Bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan–Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır.

Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq silahlı qüvvələrimizlə fəxr edirik.

Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz ordumuzla, silahlı qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir.

Keçən ay antiterror əməliyyatı qaçılmaz idi. Azərbaycan xalqı yaxşı bilir və əminəm dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın.

Vətən müharibəsi cəmi 44 gün çəkdi. Bütün bu günlər ərzində dəfələrlə xalqa müraciət edərək, eyni zamanda, düşmənə müraciət edərək bildirmişdim ki, silahları yerə qoyun, torpaqlarımızın azad olunmasının qrafikini, tarixini verin və biz müharibəni dayandırmağa hazırıq. Biz Şuşanı – bizim müqəddəs ocağımız olan, alınmaz qala sayılan Şuşanı azad edəndən sonra artıq düşmən öz məğlubiyyətini dərk etdi, ağ bayraq qaldırdı və biz müharibəni dayandırdıq.

Xatırlayıram, o vaxt bəziləri sual verirdi: Nə üçün, nə üçün biz o vaxt – noyabrın 10-da müharibəni dayandırmağa razılıq verdik. Bu gün bax, burada durarkən bir daha bildirmək istəyirəm ki, biz hər şeyi vaxtında etməliyik və etmişik. Azərbaycan xalqının böyük əksəriyyəti o vaxt da - noyabrın 10-da və ondan sonrakı dövrdə çox yaxşı başa düşürdü ki, biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə bax, burada dalğalanan Azərbaycan Bayrağıdır.

Azərbaycan xalqı mənə 20 il bundan əvvəl böyük etimad göstərmişdir və bu illər ərzində mən bunu hər zaman hiss etmişəm, bu inam daha da artmışdır. Bu gün vaxtilə – hələ işğal dövründə dediyim sözlər və xalq tərəfindən təkrarlanan sözlər mənim üçün ən böyük mükafatdır. Mən o vaxt demişdim ki, nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm. İkinci Qarabağ müharibəsi dayananda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm. O gündən üç il keçməmiş biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər.

Bu il "Heydər Əliyev İli"dir. Biz Heydər Əliyevin 100 illiyini il boyunca qeyd edirik. Necə qeyd edirik? Onun siyasətinə, onun tarixi irsinə hörmət göstərərək, onun siyasətini davam etdirərək qeyd edirik. Mən Ulu Öndərin ad gününü Şuşada keçirdim. Bilirəm, o vaxt bəziləri sual verirdi ki, təntənəli iclas harada keçiriləcək, təntənəli iclasda kim çıxış edəcək, hansı xarici qonaqlar gələcək? Sonra da gördülər ki, heç bir təntənəli iclas keçirilməmişdir. Nə üçün? Ona görə ki, bizim Ulu Öndərin xatirəsinə hörmətimiz əməli işlərlə ölçülməlidir. Bu, birincisi. İkincisi, Heydər Əliyev çox təvazökar insan idi, heç vaxt təmtəraqlı mərasimlər keçirmirdi. Onun 50 illiyini mən yaxşı xatırlayıram. 1973-cü ildə evdə ancaq ailə üzvləri onu qeyd etdik. Altmış illiyini də xatırlayıram, o zaman Moskvada çalışırdı. Orada da heç bir qonaq yox idi. Yetmiş illiyini Naxçıvanda oraya gələrək atamla birlikdə qeyd etmişdim. Səksən illiyini isə, – artıq sağlamlığı o qədər də yerində deyildi, – Ankarada xəstəxanada, xəstəxananın yeməkxanasında keçirmişik. Ona görə də atamın 100 illiyini bizim üçün böyük rəmzi məna daşıyan, hər bir azərbaycanlının ürəyində yaşayan Şuşada qeyd etməli idim. Orada Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi dedim. Bu gün Ulu Öndərin, bizim bu günü görməyən bütün həyatdan gedənlərin ruhları şaddır. Onların ruhlarını şad edən biz olmuşuq, Azərbaycan xalqı olub, onların davamçıları olub.

Ulu Öndərin 100 illiyini qeyd etdiyimiz vaxtda bu gün burada olmağım, əlbəttə ki, böyük rəmzi məna daşıyır. Onu da bildirməliyəm ki, Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti də 100 il bundan əvvəl – 1923-cü ildə yaradılmışdır. Bu, 100 ilin tarixidir. Görün, bu 100 il ərzində xalqımız nə qədər əzab çəkib, tarix bizi nə qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, heç mənəvi dəstək də göstərmədilər. Bütün əsas güclər Ermənistanın arxasında idi və bugünkü tarix onu bir daha göstərir. Baxın görün, bu gün Azərbaycana ən çox düşmənçilik edən hansı ölkələrdir. Həmin ölkələr ki, o vaxt – 1992–1993-cü illərdə Ermənistanın yanında idi, onları işğala təhrik edirdi, işğalı dəstəkləyirdi və onlara bəraət qazandırırdı. Heç nə dəyişməyib bu 30 il ərzində. Xalqımız böyük faciələrlə üz-üzə qalmışdı, 1 milyon insan evsiz-eşiksiz qalmışdır, torpaqlarımız tamamilə dağıdılmışdır. Bu gün azad edilmiş torpaqlara gələn hər bir insan öz gözləri ilə erməni vəhşiliyini görür. Bir dənə salamat bina qalmayıb. Bizə qarşı etnik təmizləmə aparılmışdır. Bizə qarşı soyqırımı törədilmişdir, Xocalı soyqırımı. Ondan çox ölkə Xocalı soyqırımını tanıyıb, "Xocalıya ədalət!" hərəkatı geniş beynəlxalq vüsət almışdır. Bax, o çətin dövrdən bu günə qədər keçdiyimiz yol şərəf və ləyaqət yoludur. Biz toparlandıq, güc yığdıq. Azərbaycan xalqı 1993-cü ildə öz müdrikliyini bir daha göstərmişdir, Ulu öndər Heydər Əliyevə dəstək vermişdir, onu prezident vəzifəsinə seçmişdir və o vaxtdan bu günə qədər inkişaf yolu ilə gedir. Son 20 il ərzində isə bu inkişaf daha da sürətlidir və bütün sahələrdə özünü göstərir.

Bu bina keçən əsrin 60-cı illərində inşa edilmişdir, Azərbaycan büdcəsi hesabına. O vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin binası idi. Buna partkom binası deyirdilər. Bu binada bir çox şəxslər oturub. Vaxt var idi burada azərbaycanlılarla ermənilər dostluq şəraitində yaşamışdır. Vaxt var idi nəinki Xankəndidə, Qarabağda, Bakıda, Gəncədə, İrəvanda, Göyçədə, Zəngəzurda, Dərələyəzdə, Basarkeçərdə azərbaycanlılar və ermənilər dostluq şəraitində yaşamışlar. Mən o illəri xatırlayıram və xüsusilə Heydər Əliyev sovet Azərbaycanında rəhbərliyə gələndən sonra Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdi. Düz 18 il. 1969-cu ildən 1982-ci ilə qədər bir dənə də xoşagəlməz hala rast gəlinməmişdi. Mən xatırlayıram, atamla birlikdə burada olmuşam. O ab-havanı mən xatırlayıram. Burada, sözün əsl mənasında, səmimi bir ab-hava şəraitində təmaslar var idi, birgə işlər görülürdü. Bu gün Sərsəng su anbarının üzərində Azərbaycan Bayrağını qaldırdıq. Heydər Əliyevin təşəbbüsü ilə bölgənin, kənd təsərrüfatının inkişafı üçün 1976-cı ildə Sərsəng su anbarı, Suqovuşan su anbarı inşa edilmişdir. O vaxt nə qədər böyük investisiyalar qoyulmuşdu. Ağdamdan Xankəndiyə dəmir yolu çəkildi, burada ali məktəb yaradıldı və Xankəndidə gördüyünüz binaların mütləq əksəriyyəti məhz o illərdə inşa edilmişdir. Kənd təsərrüfatı inkişaf edirdi. O vaxt təkcə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti 100 min tondan çox üzüm tədarük edirdi.

Bütün bunlar o vaxt kolxozlarda, sovxozlarda işləyənlər üçün gəlir mənbəyi idi, insanlar burada yaxşı yaşayırdı. Heç bir ayrı-seçkilik, diskriminasiya olmamışdır. Bu sözlərimi təsdiq etmək üçün bir misal gətirə bilərəm, o vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin doqquz nəfərdən ibarət büro üzvü var idi. Onlardan səkkizi erməni, biri azərbaycanlı idi, o da Şuşa Şəhər Partiya Komitəsinin birinci katibi. Yaxşı, əgər ayrı-seçkilik var idisə, onda bax, gətirdiyim misal nəyi göstərir? Birinci katib erməni, icraiyyə komitəsinin sədri erməni, bütün digər vəzifəli şəxslər, burada heç bir ayrı-seçkilik yox idi. Azərbaycanda erməni dilində qəzet dərc edilirdi, yəni, o illərdə olub və bilirsiniz biz o illəri də kənara qoya bilmərik. Əksinə, o illəri xatırlayanlar o xatirələri gənc nəsillə bölüşsünlər. Çünki o olub, ancaq sonra nə olub? 1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırıldı, Sovet İttifaqı Kommunist Partiyasının büro üzvlüyündən çıxarıldı. Sovet İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən də çıxarılmışdı. İki həftə keçməmiş erməni millətçiləri məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan Ermənistana verilsin. Bunu da qaldıran Moskvada oturan erməni millətçisi idi. Bu məsələ harada qaldırıldı, Fransanın bir qəzetində, yenə Fransa. Yəni, bu gün o tarixə qayıdarkən və o hadisələri təhlil edərkən bir daha görürsən ki, heç bir şey təsadüfi olmayıb. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi faktiki olaraq vəziyyəti nəzarətdən buraxdı, qorxaqlıq, acizlik, qətiyyətsizlik göstərdi. Faktiki olaraq o vaxt millətçilər buranı zəbt eləmişdilər, bax, bu meydanda nə qədər anti-Azərbaycan şüarı ilə mitinqlər keçirilmişdir və bütün bunlar millətçiləri daha da ruhlandırırdı. Ermənistandan buraya durmadan erməni millətçiləri, daşnaklar, qaniçənlər, beynəlxalq terrorçular gəlirdilər. Xalqımıza qarşı etnik təmizləmə siyasəti məhz buradan başlamışdı. Bax, o illərdə o binada oturanlar, bütün erməni və Azərbaycan xalqlarının faciələrinin səbəbkarlarıdır. Cəmi altı il Azərbaycan Heydər Əliyevsiz qalmışdır və bu altı il bizim üçün faciəvi, böhranlı, utancverici illər kimi tarixdə qaldı. Torpaqlar işğal altına düşdü, bir-birini dəyişən antimilli hökumətlər faktiki olaraq ancaq öz şəxsi maraqlarını qorumağa çalışırdılar, həm sovet dövründə, həm müstəqillik dövründə. Xüsusilə AXC-Müsavat antimilli cütlüyünün xəyanətkar və satqın fəaliyyəti nəticəsində bütün bu boyda ərazi işğal altına düşdü, sonra da qorxaqcasına öz vəzifələrini guya donduraraq kənara çəkildilər.

Yenə Heydər Əliyevin dühası, onun siması, Heydər Əliyev amili Azərbaycan xalqının yardımına yetişdi və biz haqlı olaraq Ulu Öndəri Xilaskar adlandırırıq. O vaxt Azərbaycanın dövlət müstəqilliyi əldən gedə bilərdi.

*(ardı 4-cü səhifədə)*

# Prezident İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb





(əvvəli 3-cü səhifədə)

Bu binada ən ali kürsüdə oturanların bəziləri indi Bakıdadır. Onlar Bakıya gəlmək istəyirdilər, onlar bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar. Onların tankları Hərbi Qənimətlər Parkındadır. Onlar deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Burada da haqlıdırlar. İndi çay içirlər, istintaq təcridxanasında. Özünü "prezident" adlandırmış üç təlxək bax, burada oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi. Biz isə təmkinlə hər şeyə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbirlə yanaşırdıq. Çünki bilirdik ki, biz buraya gələcəyik. Mən bunu bilirdim. Mən düz 20 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu 17 il. Üç il bundan əvvəl Şuşada bizim Bayrağımız qaldırıldı. Ancaq biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik, eyni zamanda, öz ləyaqətimizi bərpa etmişik.

Bax, burada oturmuş özünü "prezident" adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü "baş nazir" adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir. Burada özünü "xarici işlər naziri" adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan Bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara. Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən, Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar! Əgər yenə də Ermənistanda hansısa qüvvə revanş haqqında düşünürsə, bax, bu kadrlara yaxşı baxsın.

Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

*

Sonra dövlətimizin başçısı şəhərin ərazisinə baxış keçirdi.

Xankəndi şəhərinin komendantı, polis general-mayoru Sərdar Səfərov Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.

# İlham Əliyev Kərkicahan qəsəbəsində



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olub.**

Dövlətimizin başçısı qəsəbənin ərazisinə baxış keçirib.

Qeyd edək ki, qəsəbə 1991-ci il dekabrın 28-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Bu il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycan Ordusu Kərkicahan qəsəbəsini separatçılardan azad edib.

# Dövlət başçısı Şuşa rayonunun Malıbəyli kəndində





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Şuşa rayonunun Malıbəyli kəndində olub.**

Dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirdi.

Xatırladaq ki, Malıbəyli kəndi 1992-ci il fevralın 11-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Kənd 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılardan təmizlənib.

# Azərbaycan Bayrağı Xocalıda



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.**

Sonra dövlətimizin başçısı şəhər ərazisinə baxış keçirdi.

Qeyd edək ki, Xocalı şəhəri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə işğal olunub. Erməni işğalçıları Xocalıda Azərbaycan xalqına qarşı tarixin ən qanlı soyqırımlarından birini törədib. Bu soyqırımı nəticəsində 613 dinc sakin qətlə yetirilib.

Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib. Bu şəhərdə Azərbaycan Bayrağının dalğalanması Xocalı faciəsi qurbanlarının qanının yerdə qalmadığını bir daha nümayiş etdirir.

# Azərbaycanın Dövlət Bayrağı Əsgəranda



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı rayonunun Əsgəran qəsəbəsində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.**

Sonra dövlətimizin başçısı qəsəbə ərazisinə baxış keçirdi.

Qeyd edək ki, Əsgəran qəsəbəsi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub.

Qəsəbə 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib.



# Prezident İlham Əliyev Əsgəran qalasında





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Əsgəran qalasında olub.**

Dövlətimizin başçısı Əsgəran qalasına və əraziyə baxış keçirdi.

Qeyd edək ki, XVIII əsrdə Qarabağ xanı Pənahəli xanın göstərişi ilə inşa olunan Əsgəran qalası Azərbaycan memarlığının parlaq nümunələrindəndir. Qala Şuşadan 24, Xocalıdan isə 5 kilometr məsafədə yerləşir. Xocalı şəhəri 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduqdan sonra qala dağıntılara məruz qalıb.

Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra Əsgəran qalası separatçılardan azad edilib.

# Bayrağımız Xocavənddə



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocavənd şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.**

Sonra dövlətimizin başçısı şəhər ərazisinə baxış keçirdi.

Qeyd edək ki, Xocavənd şəhəri 1992-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib.

Şəhər 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılardan təmizlənib.



# Ağdam–Füzuli avtomobil yolu Qarabağın mərkəzindən keçir





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Ağdam–Füzuli avtomobil yolunun tikintisi işlərinin gedişi ilə tanış olub.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 2021-ci ilin oktyabrında təməli qoyulan və inşası sürətlə davam edən Ağdam–Füzuli avtomobil yolu Qarabağ iqtisadi rayonu ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır.

Bərdə–Ağdam avtomobil yolunun davamı olan bu yol Ağdam, Ağcabədi, Füzuli rayonlarının ərazisindən keçir. Uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla, birinci texniki dərəcəyə uyğun inşa edilir.

Torpaq işlərinin icrası çərçivəsində yararsız süxurun çıxarılması, qazma, yatağın genişləndirilməsi işləri davam etdirilir. Həmçinin yol boyunca suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü borular, su keçidləri, zəruri olan yerlərdə yeraltı və kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidlərinin tikintisi aparılır. Yol üzərində layihələndirilən körpülərin tikintisi davam etdirilir və yol əsasının inşası bitən hissələrdə asfalt-beton örtüyün döşənməsi işləri görülür.

Sonra yolun tikintisi ilə bağlı görülən işləri əks etdirən videoçarx nümayiş olundu.

Qeyd edək ki, yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yolboyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.

***AZƏRTAC***

# Azərbaycan Prezidenti İlham Əliyevin Füzuli rayonuna səfəri

## Cuvarlı kəndinin təməli qoyulub





**Oktyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonuna səfər edib.**

Dövlətimizin başçısı Füzuli rayonunun Cuvarlı kəndinin təməlinin qoyulması mərasimində iştirak etdi.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Cuvarlı kəndinin layihələndirilən ümumi ərazisi 115 hektardır. Kəndə 1697 nəfərin köçürülməsi planlaşdırılıb. Burada, ümumilikdə, 291 fərdi ev və 2-4 mərtəbəli 21 yaşayış binası tikiləcək. Kəndin inşasının birinci mərhələsi üçün 28,1 hektar torpaq sahəsi ayrılıb və 129 fərdi ev tikiləcək. Bu mərhələdə kəndə 129 ailənin – 508 nəfərin köçürülməsi planlaşdırılır.

Qeyd edildi ki, kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, kafe-restoranın, mərasim evinin, çörək sexinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 312 şagird yerlik orta məktəbin, 50 yerlik uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin, kitabxananın, ticarət obyektinin, bazarın, qonaq evinin tikilməsi planlaşdırılıb.

Diqqətə çatdırıldı ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə və istilik tutumlu evlərin inşası nəzərdə tutulub.

Prezident İlham Əliyev Cuvarlı kəndinin təməlini qoydu.

## Qoçəhmədli kəndi yenidən tikilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli rayonunun Qoçəhmədli kəndinin təməlini qoyub.**

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Qoçəhmədli kəndinin layihələndirilən ümumi ərazisi 94,62 hektardır. Kəndə 1364 nəfərin köçürülməsi nəzərdə tutulub. Burada ümumilikdə 341 fərdi evin tikilməsi planlaşdırılıb. Kəndin birinci mərhələsi üçün 18,1 hektar torpaq sahəsi ayrılıb və burada 204 fərdi ev inşa olunacaq. Bu mərhələdə kəndə 204 ailənin – 710 nəfərin köçürülməsi nəzərdə tutulub.

Qeyd olundu ki, kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, kafe-restoranın, mərasim evinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin və kitabxananın, ticarət obyektinin, qonaq evinin tikintisi planlaşdırılıb. Burada əhalinin məşğulluğu üçün hər cür şərait yaradılacaq. Qoçəhmədli kəndində 264 şagird yerlik məktəb, 25 yerlik uşaq bağçası da inşa olunacaq.

Diqqətə çatdırıldı ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Burada da enerjiyə qənaət məqsədilə alternativ enerjidən istifadə olunacaq və istilik tutumlu evlər tikiləcək.

Prezident İlham Əliyev Qoçəhmədli kəndinin təməlini qoydu.

## Füzulidə yeni idman kompleksi




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində idman kompleksinin təməlini qoyub.**

Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına kompleks barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 17 hektar olan kompleksin baş planına əsasən, burada 200 yerlik tamaşaçı tribunası olan basketbol, voleybol, həndbol, badminton, minifutbol məşqlərinin və yarışların, eyni zamanda, idmanın müxtəlif növləri üzrə turnirlərin keçirilməsinə imkan verən universal zal inşa ediləcək. Bundan başqa, kompleksdə 100 yerlik tamaşaçı tribunası olan üzgüçülük zalı, güləş, cüdo, boks, karate növü üzrə məşq və trenajor zalları yaradılacaq. Binada inzibati otaqlar, kafe, anbar və digər texniki sahələr də nəzərdə tutulub. Burada, həmçinin sauna və masaj otaqları, hakim, həkim, şərhçilər, məşqçilər üçün otaqlar və digər texniki-köməkçi otaqlar olacaq.

Diqqətə çatdırıldı ki, plana əsasən, ərazidə süni ot örtüklü minifutbol meydançası, açıq havada idman alətləri ilə təchiz edilmiş meydança və texniki bina da yaradılacaq.

Prezident İlham Əliyev idman kompleksinin təməlini qoydu.

Qeyd edək ki, bu idman kompleksi Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən inşa olunacaq.

## İkinci yaşayış kompleksi salınır





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində ikinci yaşayış kompleksinin təməlini qoyub. Dövlətimizin başçısına kompleks barədə məlumat verildi.**

Bildirildi ki, Füzuli şəhərinin Baş planına uyğun olaraq, əhalinin yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulub. İnşa olunacaq ikinci yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidən ibarətdir. Ümumilikdə, 2288 nəfər üçün nəzərdə tutulan kompleks üçün 9 hektardan çox ərazi ayrılıb. İkinci yaşayış kompleksində, ümumilikdə, 653 mənzildən 13-ü birotaqlı, 209-u ikiotaqlı, 281-i üçotaqlı, 150-si dördotaqlı olacaq.

Binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcək.

Kompleksdəki binalar daimi su, elektrik təchizatı və yüksəksürətli internetlə təmin olunacaq. İstilik və isti su təchizatı mərkəzləşdirilmiş qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq.

Dövlətimizin başçısı ikinci yaşayış kompleksinin təməlini qoydu.

# 240 yerlik uşaq bağçası inşa ediləcək



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində 240 yerlik uşaq bağçasının təməlini qoyub.**

Bövlətimizin başçısına uşaq bağçası barədə məlumat verildi.

Bildirildi ki, uşaq bağçasının inşası üçün 2,4 hektar torpaq sahəsi ayrılıb. Layihəyə əsasən, uşaq bağçası üçün əsas bina, oyun zonası, avtodayanacaq və texniki zona yaradılacaq.

Məktəbəqədər təhsil müəssisəsinin ikimərtəbəli binasında qrup, inzibati, texniki və tibb otaqları, idman və musiqi zalları, mətbəx olacaq. Burada uşaqların rahatlığı, ilkin biliklərə yiyələnməri və əylənmələri üçün hər cür şərait təmin ediləcək. Uşaq bağçasının həyətində oyun meydançaları salınacaq və digər zəruri infrastruktur yaradılacaq.

Prezident İlham Əliyev görüləcək işləri əks etdirən videoçarxa baxdı.

Sonra dövlətimizin başçısı uşaq bağçasının təməlini qoydu.

Qeyd edək ki, Azərbaycanda uşaqların təlim-tərbiyəsinə, sosial müdafiəsinin gücləndirilməsinə, vətənpərvərlik ruhunda və sağlam yetişmələrinə daim xüsusi diqqət yetirilir. Bu məsələ işğaldan azad olunan ərazilərdə də diqqət mərkəzində saxlanılır.

# Üçüncü yaşayış kompleksinin də təməli qoyulub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində üçüncü yaşayış kompleksinin təməlini qoyub.**

Bövlətimizin başçısına kompleks barədə məlumat verildi.

Bildirildi ki, üçüncü yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidə inşa olunacaq. Kompleksin inşası üçün 12 hektardan çox torpaq sahəsi ayrılıb. Burada tikiləcək 863 mənzildə 3022 nəfərin yaşaması nəzərdə tutulub. Mənzillərin 18-i birotaqlı, 276-sı ikiotaqlı, 370-i üçotaqlı, 199-u dördotaqlı olacaq.

Binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcək.

Kompleksdəki binalar daimi su, elektrik təchizatı və yüksəksürətli internetlə təmin olunacaq. İstilik və isti su təchizatı mərkəzləşdirilmiş qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq.

Dövlətimizin başçısı görüləcək işləri əks etdirən videoçarxa baxdı.

Sonra Prezident İlham Əliyev Füzuli şəhərində üçüncü yaşayış kompleksinin təməlini qoydu.



# Füzulidə inzibati bina tikiləcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində inzibati binanın təməlini qoyub.**

Bövlətimizin başçısına görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, inzibati binanın inşa olunacağı şəhərin mərkəzi ərazisində 12 hektardan çox sahə ayrılıb. İnzibati binanın inşası üçün isə 4,4 hektardan çox ərazi nəzərdə tutulub. Burada parad meydanı, bir hektar sahədə park inşa olunacaq. Bundan başqa, digər regional qurumlar üçün də ərazi nəzərdə tutulub. Beş mərtəbədən ibarət inzibati binada ən müasir şərait yaradılacaq.

Prezident İlham Əliyev görüləcək işləri əks etdirən videoçarxa baxdı.

Dövlətimizin başçısı inzibati binanın təməlini qoydu.

**AZƏRTAC**

# Xankəndidəki bayrağımızın bahar rəngləri indi külli Qarabağın payızını təravətləndirir

**Qalib Azərbaycan Ordusunun qətiyyəti və müdrik sərkərdəsi otuz il görmək istədiyimiz, amma görə bilmədiyimiz kənd və şəhərlərə Dövlət Bayrağımızı sanca-sanca gedir. Müzəffər Azərbaycan əsgəri öz ərazimizdə, öz dövlətimizin büdcəsi hesabına tikilmiş "obkom" binasında oturaraq, xalqımıza və dövlətimizə qarşı həqarətlər yağdıran şeytanlar ordusunu darmadağın etmiş, həmin ərazilərdə öz Dövlət Bayrağımızın ucaldılmasına zəmin yaratmışdır. İndi həmin yerlərdə bayraqlarımız dalğalanır. Bu, möcüzə yox, reallıqdır. Ancaq bizim üçün ən qeyri-adi möcüzədən də heyrətamizdir.**

## Bayrağımız Xan babamızın yurdunda

Biz bu diyarın vüsalına çatacağımıza ona görə inanmırdıq ki, çoxsaylı xəyanətlərinin, namərdliklərinin və çirkin əməllərinin nəticəsi olaraq lənətlənmiş ermənilərin ordusuna havadarlıq edən, ona "qorxma, qorxma" deyənlər çox idi, lap çox. Üstəlik, təkcə "qorxma" demirdilər, həm də terror və təxribatlar törətməkdə "ustalıq" statusu qazanmış yarım-vəhşi qəbiləyə hərtərəfli yardım edir, silah-sursat göndərirdilər. Onlar Azərbaycanın haqq səsini eşitmək istəmir, işğala və işğalçıya bəraət qazandırmağa çalışırdılar. Bilavasitə bu münaqişənin həll edilməsi üçün yaradılmış keçmiş Minsk qrupu isə sadəcə olaraq, Azərbaycanın başı altına yastıq qoymaq, bizi mövcud vəziyyətlə barışdırmaq məsədi güdürdü. Ona görə də bu münaqişənin ədalətli şəkildə həlli bizə müşkül görünürdü.

Ancaq biz inana bilməsək də, həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev buna daim əmin idilər və xalqa da ümid verirdilər ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcək, məcburi köçkünlərimizin ata-baba yurdlarına qayıtmasına nail olacağıq. Azərbaycanın bugünkü reallıqları məhz həmin uzaqgörənlik və prinsipiallıqların nəticəsidir.

## "Xalqa söz vermişdim ki,.."

Dövlət başçımız oktyabrın 15-də işğaldan azad edilmiş Xankəndi şəhərində Azərbaycan Bayrağını qaldırarkən xatırlatdı ki, mən ilk dəfə prezident seçilərkən xalqa söz vermişdim ki, Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcək, ölkəmizin ərazi bütövlüyünü qoruyacağam: "Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi".

Mənim də yadımdadır. Cənab Prezident 2003-cü ildəki seçkinin nəticələri elan ediləndən sonra xalqın qarşısına çıxmış, insanlarla səmimi söhbət etmişdi. Demişdi ki, mənim əsas vəzifəm Azərbaycan Bayrağının o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılmasından ibarətdir. Dedi və əməl etdi.

Cənab Prezident ona görə dediklərini reallığa çevirə bilir ki, xalq ona inanır, etimad göstərir və hər addımda dəstəkləyir. Ona görə də dövlət başçımız Xankəndidə xatırlatdı ki, bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır: "Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq".

## Problem bizim Heydər Əliyevsiz keçən illərimizdə köklənmişdi

Dövlət başçımızın Xankəndidəki çıxışının bütün müddəaları bizim üçün maraqlı və əlamətdar olsa da, bəzi məqamlar var idi ki, onları məhz xüsusilə vurğulamalıyıq. Məsələn, dövlət başçımız xatırlatdı ki, indi üstündə Azərbaycan Gerbi görünən, qarşısında Dövlət Bayrağımız dalğalanan bu bina keçən əsrin 60-cı illərində Azərbaycan büdcəsi hesabına inşa edilmişdir. O vaxt Dağlıq Qarabağ Muxtar Vilayəti partiya komitəsinin binası idi? "Vaxt var idi burada azərbaycanlılarla ermənilər dostluq şəraitində yaşamışlar. Vaxt var idi nəinki Xankəndidə, Qarabağda, Bakıda, Gəncədə, İrəvanda, Göyçədə, Zəngəzurda, Dərələyəzdə, Basarkeçərdə azərbaycanlılar və ermənilər dostluq şəraitində yaşamışlar. Mən o illəri xatırlayıram və xüsusilə Heydər Əliyev sovet Azərbaycanında rəhbərliyə gələndən sonra Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdi. Düz 18 il. 1969-cu ildən 1982-ci ilə qədər bir dənə də xoşagəlməz hala rast gəlinməmişdi".



## Yenə də Fransa...

Məlum olduğu kimi, 1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırıldı, Sovet İttifaqı Kommunist Partiyasının büro üzvlüyündən və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən kənarlaşdırılmasından iki həftə keçməmiş erməni millətçiləri məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan Ermənistana verilsin. Bunu da qaldıran Moskvada oturan erməni millətçisi idi. Bu məsələ harada qaldırıldı, Fransanın bir qəzetində. Yenə də Fransa…

Prezidentin fikrincə, bu gün o tarixə qayıdarkən və o hadisələri təhlil edərkən bir daha görürsən ki, heç bir şey təsadüfi olmayıb.

## Üç təlxək və təcridxana çayı…

Cənab Prezident qarşısında dayanaraq çıxış etdiyi binanı göstərərək dedi ki, bu binada ən ali kürsüdə oturanların bəziləri indi Bakıdadır. Üstəlik, xatırlatdı ki, bəzi separatçı və terrorçu ermənilər vaxtilə Bakıya gəlmək istəyirdilər, onlar bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar: "Onların tankları Hərbi Qənimətlər Parkındadır. Onlar deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Burada da haqlıdırlar. İndi çay içirlər, istintaq təcridxanasında. Özünü "prezident" adlandırmış üç təlxək bax, burada oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi. Biz isə təmkinlə hər şeyə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbirlə yanaşırdıq".

Bəli, vaxtilə özünü "prezident" adlandıran 3 təlxək bu gün layiqli cəzasını gözləyir. Özünü Qarabağın "xarici işlər naziri" adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim bayrağımız isə məhz Xankəndidə dalğalanır. Təbii ki, biz bununla fəxr edir, qürur duyuruq.

Ancaq fikrimizcə, bu gün ən çox fəxr etməli insan məhz üçrəngli bayrağımızın Xankəndiyə gedən yolunu qısaltmış və onu bütün dünyanın görə biləcəyi zirvələrə qaldırmış möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevdir. Elə dövlət başçımız özü də bu faktı etiraf edir: "Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

## Bayraqlaşan Qarabağ

…Bu gün Azərbaycanın bütün yaşayış məntəqələrində, dövlət müəssisələrində, xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizdə, üzvü olduğumuz beynəlxalq təşkilatların önündə Azərbaycan Bayrağı dalğalanır. Hətta, kosmosdakı rabitə peyklərimizin üzərində də üçrəngli, ay-ulduzlu müqəddəs dəyərimizin şəkili var. Ancaq mənim fikrimcə, Xankəndidə dalğalanan bayrağımızın bəxtəvərliyi özgə aləmdir. Allah əbədi eləsin!

**İttifaq MİRZƏBƏYLİ**
**"XQ"**

# Xankəndi manifesti – 20 ilin qürur və fəxarət salnaməsi

## Tarix yaratmanın və yaşatmanın möhtəşəm örnəyi

(əvvəli 1-ci səhifədə)

Bəli, ötən 20 il Azərbaycana özü olmaq şansını qazandırdı. 2023-cü ilin 15 oktyabr tarixində Xankəndi şəhəri bu qazancın ən təsirli səhnəsinə şahidlik etdi. Xankəndi, Ağdərə, Əsgəran, qan yaddaşımız Xocalı, Xocavənd, ümumən, Qarabağ son yüz ildə heç vaxt indiki qədər Azərbaycan olmamışdı. Qarabağın Azərbaycan olmasına imkan verilmədiyini də xatırlamaqla, hadisələrin xoşagəlməz şəkil almasına maneçilik törətmək üçün böyük səylərin göstərildiyini də mütləq qaydada yada salmalıyıq. Elə ona görə də Prezident İlham Əliyev böyük qədirbilənliklə yada salır: “Bu gün Ulu öndərin, bizim bu günümüzü görməyən bütün həyatdan gedənlərin ruhları şaddır. Onların ruhlarını şad edən biz olmuşuq, Azərbaycan xalqı olub, onların davamçıları olublar”.

Bəli, ulu öndər Heydər Əliyev Qarabağın Azərbaycan olması üçün çox çalışmışdı. Özü də respublikamıza rəhbərliyinin hər iki mərhələsində. Əgər ikinci mərhələdə Prezident kimi Qarabağ həqiqətlərini usanmadan, Azərbaycanın haqlı və ədalətli mövqeyini yorulmadan dünya birliyinin diqqətinə çatdırmış, Qarabağ davasının siyasi-diplomatik və ideoloji istiqamətlərini hazırlamışdısa, birinci mərhələdə bölgəmizin erməniləşdirilməsinin qarşısında sipər çəkmişdi. İstəmişdi ki, Qarabağın hər yanında Azərbaycan izi olsun. Əlbəttə, Ümummilli Liderin hakimiyyətinin ilk dövründə bölgə ilə bağlı gerçəkləşdirdiyi tədbirlər həm də ona hesablanmışdı ki, orada yaşayan ermənilər Azərbaycanın həssaslığını duysunlar, azərbaycanlılarla birlikdə yaşamağın faydalarını hiss etsinlər və nəticə etibarilə Qarabağda separatçılıq meyilləri üçün meydan yaranmasın. Axı, həmin meyillər o zaman da olmuşdu. Sadəcə, Heydər Əliyev şəxsiyyəti onları yüksək məharətlə neytrallaşdırmağı bacarmışdı. İnsana nə lazımdır? Təminatlı yaşam. Ulu öndər o zaman məhz bunu gerçəkləşdirmişdi. Buna görə də Prezident İlham Əliyev Xankəndidəki çıxışında həmin dövrü təsvir edir. Onun təsviri həm də tarixi dəyərdir.

“Vaxt var idi burada azərbaycanlılarla ermənilər dostluq şəraitində yaşamışlar. Vaxt var idi nəinki Xankəndidə, Qarabağda, Bakıda, Gəncədə, İrəvanda, Göyçədə, Zəngəzurda, Dərələyəzdə, Basarkeçərdə azərbaycanlılar və ermənilər dostluq şəraitində yaşamışlar. Mən o illəri xatırlayıram və xüsusilə Heydər Əliyev sovet Azərbaycanında rəhbərliyə gələndən sonra Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdilər. Düz 18 il. 1969-cu ildən 1982-ci ilə qədər bir dənə də xoşagəlməz hala rast gəlinməmişdi. Mən xatırlayıram, atamla birlikdə burada olmuşam. O ab-havanı mən xatırlayıram. Burada, sözün əsl mənasında, səmimi bir ab-hava şəraitində təmaslar var idi, birgə işlər görülürdü”, – deyən Azərbaycanın dövlət başçısı Sərsəng və Suqovuşan su anbarlarının Heydər Əliyevin təşəbbüsü ilə kənd təsərrüfatının inkişafı üçün inşa edildiyini, Azərbaycanın böyük investisiyaları hesabına Ağdamdan Xankəndiyə dəmir yolunun çəkildiyini, Xankəndidə ali məktəb yaradıldığını, ümumən, bu qədim diyarımızın şəhərləşdirildiyini, çoxsaylı binaların tikildiyini xatırladır.

Prezident İlham Əliyevin vaxtilə də bölgənin erməni əhalisinə qarşı heç bir ayrı-seçkiliyin olmadığını bildirməsi, bunun təsdiqi üçün gətirdiyi misallar kifayət qədər dolğundur. Əslində, ölkəmizin liderinin söylədiklərinə Ermənistan rəhbərliyi, dünya ermənipərəstləri də diqqət yetirməlidirlər. Nəinki diqqət yetirməli, eyni zamanda, nəticə çıxarmalıdırlar. Azərbaycana qarşı əks mövqe tutmaqla, düşmənçiliklə nəyi, hansı yaşam üstünlüyünü əldən verdiklərinin fərqinə varmalıdırlar: “Bu sözlərimi təsdiq etmək üçün bir misal gətirə bilərəm, o vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin doqquz nəfərdən ibarət büro üzvü var idi. Onlardan səkkizi erməni, biri azərbaycanlı idi, o da Şuşa Şəhər Partiya Komitəsinin birinci katibi. Yaxşı, əgər ayrı-seçkilik var idisə, onda bax, gətirdiyim misal nəyi göstərir? Birinci katib erməni, icraiyyə komitəsinin sədri erməni, bütün digər vəzifəli şəxslər, burada heç bir ayrı-seçkilik yox idi. Azərbaycanda erməni dilində qəzet dərc edilirdi, yəni, o illərdə olub və bilirsiniz biz o illəri də kənara qoya bilmərik. Əksinə, o illəri xatırlayanlar o xatirələri gənc nəsillə bölüşsünlər. Çünki o olub, ancaq sonra nə olub?”



Ulu öndərin 1987-ci ildə SSRİ-də tutduğu mühüm dövlət postundan uzaqlaşdırılmasından sonra baş verənlər də hər kəsin yaxşı xatirindədir. Heydər Əliyevin gedişindən heç iki həftə keçməmiş Qarabağda erməni avantürizmi baş qaldırdı. Məlum olduğu kimi, SSRİ-nin o zamankı rəhbəri Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan 1980-ci illərin sonunda Moskvada erməni lobbisinin ən güclü nümayəndələrindən biri idi. O, erməni millətçilərinin Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün başlatdıqları "Miatsum" hərəkatının təşəbbüskarı kimi ad çıxarmışdı.

Aqanbekyan 1987-ci ilin noyabrında Parisdə Fransa erməni institutunun və Erməni veteranlar assosiasiyasının onun şərəfinə təşkil etdiyi tədbirdə demişdi ki, Qarabağ iqtisadi cəhətdən daha çox Ermənistana bağlıdır, nəinki Azərbaycana. O, bölgənin Ermənistana verilməli olduğu fikrini Fransanın “Humanite” (L'Humanité) qəzetinə müsahibəsində bəyan etmişdi. Prezident İlham Əliyev də çıxışında mövcud məqama diqqət yetirdi: “Bu məsələ harada qaldırıldı, Fransanın bir qəzetində, yenə Fransa. Yəni, bu gün o tarixə qayıdarkən və o hadisələri təhlil edərkən bir daha görürsən ki, heç bir şey təsadüfi olmayıb. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi faktiki olaraq vəziyyəti nəzarətdən buraxdı, qorxaqlıq, acizlik, qətiyyətsizlik göstərdi. Faktiki olaraq o vaxt millətçilər buranı zəbt eləmişdilər, bax, bu meydanda nə qədər anti-Azərbaycan şüarı ilə mitinqlər keçirilmişdir və bütün bunlar millətçiləri daha da ruhlandırırdı. Ermənistandan buraya durmadan erməni millətçiləri, daşnaklar, qaniçənlər, beynəlxalq terrorçular gəlirdilər. Xalqımıza qarşı etnik təmizləmə siyasəti məhz buradan başlamışdı. Bax, o illərdə o binada oturanlar, bütün erməni və Azərbaycan xalqlarının faciələrinin səbəbkarlarıdır. Cəmi altı il Azərbaycan Heydər Əliyevsiz qalmışdır və bu altı il bizim üçün faciəvi, böhranlı, utancverici illər kimi tarixdə qaldı. Torpaqlar işğal altına düşdü, bir-birini dəyişən antimilli hökumətlər faktiki olaraq ancaq öz şəxsi maraqlarını qorumağa çalışırdılar, həm sovet dövründə, həm müstəqillik dövründə. Xüsusilə AXC – Müsavat antimilli cütlüyünün xəyanətkar və satqın fəaliyyəti nəticəsində bütün bu boyda ərazi işğal altına düşdü, sonra da qorxaqcasına öz vəzifələrini, guya, donduraraq kənara çəkildilər”.

Bəli, Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışı başımıza gələcək bəlaların qarşısını aldı. Ölkəmiz müstəqilliyini itirməkdən xilas oldu. Eyni zamanda, işğaldan qurtuldu da deyə bilərik. Nəzərə alaq ki, erməni millətçiliyinin planları yalnız həmin vaxtadək işğal edilmiş ərazilərlə məhdudlaşmırdı. Prezident İlham Əliyev də çıxışında bu məqama toxundu. Dövlətimizin başçısı həmin millətçilərin Bakı küçələrində tank sürmək, çay içmək niyyətlərini xatırlatdı.

Bütün bunları həyata keçirmək “istəkləri” aktual idi. Yəni, Ermənistanın əli ilə Azərbaycan dövlətçiliyi üçün böyük qəsd planı hazırlanmışdı. Heydər Əliyev məhz belə məkrin qarşısını alması ilə də tarixə düşəcək şəxsiyyətdir. Ulu öndər Azərbaycanı təkcə bəlalardan sığortalamadı, eyni zamanda, sürətli, dönməz inkişaf yoluna çıxartdı. Elə bir yola ki, o yolda əvvəldə bildirdiyimiz kimi, həm Qarabağ ideoloji məfkurə halına gəldi, həm də bu məfkurə naminə mübarizə əzmi möhkəmləndi.

Nəhayət, 2003-cü il oktyabrın 15-də Heydər Əliyevin Qarabağ ideyalarının gerçəkləşməsinə yeni start verildi. İyirmi illik yol başlandı. İlham Əliyevin Qarabağ yolu: “Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və “Qurani-Kərim”ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi. Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı “Allaha şükür!” deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək”.

Bəli, Prezident İlham Əliyevin iyirmi illik gərgin əməyinin nəticəsi olaraq bu gün ərazi bütövlüyümüz, suverenliyimiz bərpa olunub. Əlbəttə, buna əminlik və inam hissi heç də elə-belədən yaranmadı. Ölkəmiz ötən iyirmi ildə görünməmiş iqtisadi nailiyyətlərə imza atdı. Dövlətimizin başçısının həyata keçirdiyi bütün tədbirlərin bir hədəfi var idi – Qarabağ. Nəticə etibarilə Prezident İlham Əliyevin təbirincə desək, elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi: “Azərbaycan xalqı mənə 20 il bundan əvvəl böyük etimad göstərmişdir və bu illər ərzində mən bunu hər zaman hiss etmişəm, bu inam daha da artmışdır”.

Xalqın İlham Əliyev şəxsiyyətinə inamının nəticəsi idi ki, cəmi 44 gün ərzində düşməni diz çökdürdük, onu ağ bayraq qaldırmağa məcbur etdik. Ümumən, 44 günlük müharibə dövrü və ondan sonrakı mərhələ Prezident İlham Əliyevi xalqa tam fərqli obrazda təqdim etdi. Həmin müddətdə dövlətimizin başçısı Ali Baş Komandan, mahir sərkərdə keyfiyyətləri ilə seçilməklə yanaşı, həm də hər bir azərbaycanlının doğması – atası, əmisi, dayısı halına gəldi. Müharibə İlham Əliyevin xalqla ünsiyyət ritorikasına zərbməsələ çevrilmiş leksikon daxil etdi. Bu leksikon əsl Azərbaycan kişisinin obrazını canlandırırdı. Bu obrazın isə özlüyündə çox böyük məziyyətləri var. Ancaq biz ən başlıca xüsusiyyəti fərqləndirməliyik– SÖZÜBÜTÖVLÜYÜ.

İlham Əliyev liderliyinin ən başlıca xüsusiyyəti onun sözünün ağası olmasıdır. Dövlətimizin başçısının hər bir fikri reallıqla fiksasiya əhəmiyyətinə malikdir. Yəni, o, nəyi dilə gətirirsə, dediyini mütləq həyata keçirir. Məhz planlılıq, strateji yanaşma İlham Əliyevin mahir siyasətçi obrazını tamamlayır. Bu gün bu obraz, eyni zamanda, güclü, qüdrətli Azərbaycanın obrazıdır. Bu, elə bir obrazdır ki, ölkəmizi dünyaya tanıdır. Ancaq biz onu da gördük ki, işğalçı Ermənistan və havadarları 17 il ərzində qeyd etdiyimizi məqamı dərk etmədilər, xəbərdarlıqlardan nəticə çıxarmadılar: “Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın”.

Bəli, istər 44 günlük müharibə, istərsə də 23 saat 43 dəqiqə davam etmiş lokal xarakterli antiterror tədbirləri göstərdi ki, Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaranmasına nəinki imkan verməyəcək, əksinə, bu xülyaya düşənlərə qarşı barışmaz olacaq. Bəli, bu gün Xocalı qatilləri, Qarabağdakı separatçı rejimdə təmsil olunanlar Bakıda mühakimə olunurlar. Haqq və ədalət öz yerini tapır. Elə tapır ki, hər kəsə, erməni avantürizminin hər bir nümayəndəsinə görk olur. Bu böyük görk olayının müəllifi İlham Əliyevdir. Onun Prezident kimi fəaliyyətinin 20 illiyinin sayəsində xalqımız ötən müddətdə çəkdiyi məhrumiyyətlərin mükafatını görməkdədir.

Sonda onu da deyək ki, Prezident İlham Əliyevin Xankəndi şəhərindəki çıxışına ən müxtəlif prizmadan yanaşmaq, çoxsaylı örnək nəticələr çıxarmaq mümkündür. Tarixi çıxışın xarakteri belədir. Ən böyük nəticə isə qürurdur. Bəli, əminliklə söyləyə bilərik ki, dövlətimizin başçısının bu qədim şəhərimizdəki çıxışı əsl qürur və fəxarət manifesti idi.

*Əvəz CAHANGİROĞLU*
*XQ*

---

**Replika**

# Oskanyanın “gizli xilas” boxçası

## Hayastanın sabiq baş diplomatının səyləri poçtalyon Peçkinin davranışını xatırladır



**Ermənistan xilas edildi. Onun canını “Qarabağ” kodlu ağır yükdən Azərbaycan əsgəri qurtardı. Bu, işğalçılıq mərəzindən müalicə etməyə çalışdığımız dövlətin həqiqi müstəqillik, qonşularla təcili şəkildə sülhə gəlmək, onlarla faydalı əməkdaşlığın perspektivləri və bu tarixi imkanı əldən buraxmamaq barədə düşünmək şansıdır. Amma kənardan aydın görünən həqiqət bundan ibarətdir ki, şovinist və revanşist hayların bir qismi bu reallığı görmək, onu düzgün dəyərləndirmək iqtidarında deyil. Belələrindən biri də Ermənistanın sabiq xarici işlər naziri Vardan Oskanyandır.**

Sosial şəbəkədə, canlı efirdə auditoriyaya “siyasi mühazirə” oxuyan V.Oskanyan bəyan edib ki, onun Ermənistanı və “Dağlıq Qarabağı” düşdüyü dalandan çıxarmağa dair “hərəkət planı” var. O, bu planın hətta konkret bəndlər üzrə hazırlandığından söz açır. “Amma planın detalları barədə danışa bilmərəm”,– deyən eks baş diplomatın bu “strateji jestləri” ötən əsrin 70–80-ci illər sovet animasiya filminin məhşur qəhrəmanı, nümunəvi vətəndaş və poçtalyon Peçkinin hərəkətlərinə bənzəyir. Yəqin, yaşlı nəsil onun qoltuğunda “banderol” qapını döyərkən içəridəki azyaşlılara dediyi və sonralar aforizmə çevrilmiş sözlərini xatırlayır: “Mən sizə banderol gətirmişəm. Amma onu sizə verə bilmərəm, çünki hələlik pasportunuz yoxdur”. Komik poçtalyondan fərqli olaraq, uğursuz diplomat Oskanyanın qoltuğunda nəinki hansısa “banderol”, heç məktub belə yoxdur.

Bu gün İrəvan iqtidarına qarşı ən barışmaz mövqedə olan qatı radikallar belə artıq Qarabağın Azərbaycanın tam nəzarətinə keçməsi faktını qəbul etmək məcburiyyətində qaldıqlarını etiraf edirlər. Daha Ermənistan paytaxtında bu coğrafiyanın adının hallandırıldığı nə etiraz mitinqləri, nə də küçə yürüşləri keçirilir. İntəhası, eks nazir Oskanyan yenə baş nazirə “Qarabağ uğrunda mübarizə apar” xarakterli bəyanatları ilə onun başına ağıl qoymağa çalışır.

Oskanyan, əslində, Nikol Paşinyanı Fransanın dəstəyindən yararlanmağa çağırır. Yəni o, bununla demək istəyir ki, Fransa Azərbaycanla mübarizəni davam etdirən yeganə Avropa ölkəsidir. İki həftə bundan əvvəl özünün “dahiyanə” fikirlərini ictimaiyyətə açıqlayan erməni “siyasi strateq”in Bakının Qarabağda həyata keçirdityi antiterror tədbirindən sonra gülünc duruma düşdüyü şəksizdir. Dünən onun fikirlərinə az-çox qulaq asanlar bu gün haqlı olaraq Hayastanın bir dövlət kimi hansı yolla xilas edilməsi üzərində baş sındırmaqla məşğuldurlar.

Ermənistan hakimiyyətində Qarabağ klanından bir nəfəri belə görməyi arzulamayan indiki səlahiyyət sahiblərinin Oskanyanın dediklərinə qarşı diqqəti sıfır üzərindədir. Xalqın qulağına boş vədlər üfürən “Mister X” özü də yaxşı anlayır ki, bundan sonra ona heç bir kürsü və ya səlahiyyət verilməyəcək. Maskasının arxasından keçmiş şefi Robert Koçaryanın “sifəti” görünən eks nazirin sayıqlamaları daha çox psixodispanser pasiyentinin sayıqlamalarına bənzəyir. Müharibə cinayətkarı, müxalifətin lideri, separatçı Koçaryanın özü isə ictimaiyyətin diqqətini ona sadiq məhz əsgər-diplomatın vasitəsilə yayındırmağa çalışır. Yəni Oskanyanın dili ilə demək istəyir ki, beynəlxalq elita ilə əlaqələri sayəsində bu işin “təşkilinə” yardım göstərə bilər.

Fəqət, Oskanyan bunları publikaya deyərkən, Fransanın, guya, davam etdirdiyi mübarizənin sonunda hansı nəticəni əldə edə biləcəyini söyləməyi unudur. Axı oskanyanbeyinli ermənilər üçün Fransa–Azərbaycan münasibətlərinin gərginləşməsi perspektivindən savayı, pozitiv heç nə görünmür. Bu zaman itirən yenə birinci tərəf olacaq. Yalnız bir məsələdə Oskanyana haqq qazandırmaq mümkündür. Bəli, Paşinyan Qarabağ yükündən canını qurtardığına və Azərbaycanın yaratdığı reallıqları nəzərə aldığına görə, sadəcə, özünə və ölkəsinə aid məsələlərlə məşğul olmaq istəyir. Keçmiş Dağlıq Qarabağ münaqişəsi istər regional, istərsə də beynəlxlaq gündəlikdə müzakirə edilən məsələlər siyahısında deyil. Bu mövzu qapanıb. Həm də birdəfəlik!

*İ.HƏSƏNQALA*
*XQ*

# Qanlı separatizmin iflası

## *İndi Xankəndidə həyat Günəşə, sülhə və əməkdaşlığa açıqdır*

**Tarixin şahidlik etdiyi müharibələrin bir–birinə bənzəyən səhnələri, mənzərələri az deyil. Qalib tərəfin qürur və sevinci, məğlubun peşmançılığı ilə yanaşı, əli dinc insanların qanına bulaşmış müharibə cinayətkarlarının ittiham olunması, təslim və sülh müqavilələrinin imzalanması kimi hadisələr yetərincə olub. Amma bunların arasında ən yaddaqalanı Azərbaycanın Dövlət Bayrağını işğaldan azad etdiyi məkanda ucaltması məqamıdır. Bu, həm də Qələbənin rəmzi kimi qəbul olunan hadisədir. Adətən, bu tarixi missiyanı döyüşən əsgər və zabitlər yerinə yetirirlər.**



### Separatçılığın ruporu eyni ölkədir

Oktyabrın 15-də Azərbaycan xalqı Xankəndidə möhtəşəm mərasimi böyük fəxarət və sevinc hissi ilə seyr etdi. Amma bu dəfə üçrəngli bayrağımızı ucaltmaq kimi müqəddəs missiyanı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev yerinə yetirdi. Əslində, bu, sadəcə Qarabağdan süpürülüb atılmış separatçı-daşnak ünsürlərinə deyil, daha çox xaricdə Azərbaycanı bəyənməyənlərə, ermənipərəst müsyölərə, sem dayılara ünvanlanmış diplomatik jest idi.

“Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Xankəndidə bayraqqaldırma mərasimindən sonrakı çıxışında söylədi. Prezident çıxışında həmçinin, Qarabağda separatçılığın nə zaman və hansı şəraitdə baş qaldırdığına da aydınlıq gətirib: “1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırıldı... Üstündən iki həftə keçməmiş erməni millətçiləri məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan Ermənistana verilsin. Məsələni qaldıran Kremldə oturan erməni millətçisi idi. Bəs bu məsələ barədə ilk dəfə harada yazıldı? Fransanın bir qəzetində. Yenə həmin Fransa. Yəni, bu gün o tarixə qayıdarkən və o hadisələri təhlil edərkən bir daha görürsən ki, heç bir şey təsadüfi olmayıb”.

Daha Qarabağda separatizmin yuva salmasına imkan verilməyəcək. Bunu daşnak-separatçı hay ünsürləri kimi, onlara hələ də dəstəyini davam etdirən bəzi ölkələr, dairələr və institutlar da unutmamalıdır. Dünya təcrübəsinə nəzər salsaq, görərik ki, daxilində separatizm meyilləri baş qaldırmış heç də bütün ölkələr bu zərərli təmayüllə mübarizədən qalib ayrılmayıblar. Onların arasında geri çəkiləni də olub, məğlub olanı da. Bu kontekstdən yanaşanda, Xankəndidə bayrağımızın ucaldılması Azərbaycan tarixinin ən yaddaqalan hadisələrindən biri olmaqla yanaşı, həm də Cənubi Qafqazda, həmçinin ondan kənarda geosiyasi reallıqları, qüvvələrin konfiqurasiyasını dəyişən məqamdır.

### Beynəlxalq rezonans doğuran hadisə

Gürcüstan Strateji Planlaşdırma Mərkəzinin rəhbəri Levan Mamaladze hesab edir ki, baş verənlər region üçün tarixi bir hadisədir. “Report”a açıqlamasında gürcü ekspert deyib ki, 2003-cü ildə İlham Əliyev inauqurasiyası zamanı Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyini söyləmişdi: “Prezident İlham Əliyev bunu dedi və sözünü tutdu. Azərbaycan Bayrağı Azərbaycan ərazisi olan Xankəndidə qaldırıldı. Bu, bir daha sübut etdi ki, doğru və əzmkar çalışaraq bütün maneələri aşıb, ərazi bütövlüyünü bərpa edib, bütöv və güclü dövlət qurmaq mümkündür. Azərbaycan xalqı itkilərlə, qanla özünün suverenliyini, ərazi bütövlüyünü bərpa etdi. Bu, bizim üçün də bir nümunədir. Biz Azərbaycan nümunəsi üzərində düşmənlə necə mübarizə aparmaq lazım olduğunu öyrənməliyik. İnanıram ki, vaxt gələcək, biz də ərazi bütövlüyümüzü bərpa edəcəyik”.

Politoloq Simon Kapadze isə bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev 20 illik hakimiyyəti dövründə çox uğurlara imzasını atıb: “Ən əsası isə o, Azərbaycanın ərazi bütövlüyünü bərpa edib. Arzu edirəm ki, Azərbaycanda baş verənlər tezliklə Gürcüstanda da olsun. Gürcüstan da öz ərazi bütövlüyünü bərpa etsin. Azərbaycan Bayrağı Xankəndidə dalğalandığı kimi, Gürcüstan bayrağı da Suxumidə dalğalansın”.

### Tehrandan gözlənilən reaksiya

Dünyanın nüfuzlu media qurumları cənab Prezidentin Xankəndiyə səfərini və oradakı çıxışında verdiyi mesajlara geniş yer ayırıblar. İlham Əliyevin Qarabağa səfəri İranın müxtəlif media orqanlarında geniş işıqlandırılır. Səfərlə bağlı xəbərlər, zarisovkalar, fotolar və videolar paylaşılır. Amma bu xəbərlərin bəzilərində diqqəti çəkən məqamlar da var. Misal üçün, bir sıra xəbərlərdə Qarabağda yaşamış ermənilərin sayının 150 minə yaxın olduğunu iddia edən sayt və portalların yazdığına görə, “Azərbaycan Ordusunun keçən ay “sürətli hücumundan” sonra ermənilər Qarabağdan Ermənistana qaçmağa məcbur olublar. Ardınca oxuyuruq: “Xankəndidə Azərbaycan Bayrağının qaldırılmasının rəsmi mərasimi Bakının Qarabağ üzərində tam suverenliyinin bərqərar olması, bölgədə “müstəqil Artsax erməni dövlətinin” rəsmi sonu deməkdir”.

Yeri gəlmişkən, Ermənistan hakimiyyətinə yaxın media portalları Qarabağdan köçən ermənilərin sayını şişirdərək 120 min göstərdiyi halda, Tehran rejiminin maliyyələşdirdiyi medianın 150 min rəqəmini hardan götürdüyü sual doğurur. Bölgədə 30 il ərzində cərəyan edən hadisələrin xronoloji mənzərəsinə baxanda nəyi görürük? Bu gün Azərbaycana qarşı dezinformasiya cəbhəsi açan, onu siyasi şantajla hədələyən, açıq düşmənçilik edən ölkələr 1992-1993-cü illərdə Ermənistanın yanında duranlardı. Məhz bu xarici qüvvələr hayları işğala təhrik edirdi, bu yolda onları dəstəkləyirdi və yeri gələndə, beynəlxalq arenada İrəvana bəraət qazandırırdı. Bəli, təəssüflə qeyd etməliyik ki, 30 il ərzində o cəbhədə heç nə dəyişməyib.

### Doğru sözə nə deyəsən?

“Bəli, Ermənistan zəif, Azərbaycan isə güclüdür. Biz fərsiz liderlərin sayəsində məğlub olduq və bu vəziyyətə düşdük. İndi bu reallığı nəzərə almalıyıq. Aydındır ki, danışıqlar prosesində üstünlük daha çox güclüyə verilir”. Bu sözləri erməni hərbi ekspert, ehtiyatda olan polkovnik Ayk Nahapetyan deyib.

Nahapetyan daha sonra bölgədə yaranmış reallığa şərhini verir: “Paşinyanın ziddiyyətli fikir və bəyanatlarına baxmayaraq, ona kifayət qədər ciddi baxırıq. Odur ki, Paşinyanın açıqlamalarını əsas götürməməliyik. Etiraf edək ki, Cənubi Qafqazdakı 3 əsas oyunçu (Türkiyə-Rusiya-İran - red.) arasında regionda sabitliyin qorunub saxlanması məsələsində fikir birliyi əldə edilib. Bu üç regional gücün formalaşdırmağa çalışdığı “3+3” formatı, ilk növbədə, bölgədə sabitliyin və tərəqqinin təminatıdır.

Doğrudur, bu ölkələr arasında müəyyən ziddiyyətlər var, amma həmin ziddiyyətlər danışıqlar yolu ilə həll olunur. Yeri gəlmişkən, Azərbaycan və Gürcüstan da “3+3” formatının tərəfdarıdır, Ermənistan isə əleyhinədir. İndi təsəvvür edək ki, regional proseslərə ciddi təsir göstərən beş dövlət öz aralarında razılaşır, amma Ermənistan bunun əleyhinədir. Belə olan vəziyyətdə, sizcə, Ermənistan udacaq, yoxsa uduzacaq?

Əlbəttə ki, uduzacaq. Bu, aydındır. Horadiz–Mehri–Ordubad–Arazdəyən dəmir yolunun bərpası üçün yollar açılsa, Ermənistanın çox sərfəli mövqedə qalacağını düşünürəm. Ermənistan tranzit ölkəyə çevrilə bilər. Açılmalı və ya yeni tikilməli olan kommunikasiyalarda Ermənistan iştirak etməlidir”. Bu, sağlam düşüncəli erməninin fikirləridir.

Azərbaycan sülhə, əməkdaşlığa hazır olduğunu dəfələrlə bəyan edib. İndi söz və iş qalır İrəvanın boynunda. Çox gümün ki, Ermənistan iqtidarı doğru seçim edəcək.

İlham Əliyev erməni separatçıların özlərinə yuva qurduqları binadakı pəncərələri açdı və otağın havasını dəyişdi. O, bunu səbirlə və qətiyyətlə, bütöv Qarabağın iqlimini yad nəfəslərdən təmizləmək məqsədilə etdi. Həmin epizoda bütün dünya baxdı. Bu, o deməkdir ki, bundan sonra Xankəndidəki binaların pəncərələri daim Günəşə və sülhə açıq olacaq...

**İmran BƏDİRXANLI**
**XQ**

# Partiyalar uğurlardan qürurlanır

**Azərbaycanda fəaliyyət göstərən 23 siyasi partiyanın sədri Prezident İlham Əliyevə Qarabağda aparılmış antiterror tədbirlərinin nəticələri ilə bağlı və ölkəyə rəhbərliyinin 20 illiyinin tamam olması münasibətilə müraciət ünvanlamışlar.**

Sənəddə qeyd edilir ki, Azərbaycan xalqının milli birliyi, müzəffər ordumuzun qəhrəmanlığı və Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi bütün dünya azərbaycanlılarına bugünkü qürur dolu anları yaşadır: “Siyasi baxışlarından asılı olmayaraq indi hər bir Azərbaycan vətəndaşı dərk edir ki, tarixin bütün dövrlərində başımıza gələn faciələr, torpaqlarımızın itirilməsi, soydaşlarımızın öz doğma yurdlarından didərgin salınması, suverenliyimizin pozulması milli birliyin olmamasından, hərbi və iqtisadi gücümüzün zəifliyindən irəli gəlmişdir”.

Bildirilir ki, dövlət başçısının uzun zaman böyük səbir, təmkin və iradə göstərərək Azərbaycanın daxili və xarici siyasətində nail olduğu uğurlar ölkəmizi addım-addım Zəfər gününə, ərazi bütövlüyünün təmin olunmasına, suverenliyin tam bərpa edilməsinə yaxınlaşdırmışdır: “Ötən 20 il ərzində Azərbaycan Sizin rəhbərliyiniz altında öz ərazi bütövlüyünü təmin etmək, suverenliyini bərpa etmək, məcburi köçkünlərimizin doğma torpaqlarına qayıtmasına nail olmaq üçün çətin sınaqlardan keçmişdir. Siz Qarabağda kök salmış cinayətkar rejimin, terrorçu dəstələrin, onların xarici havadarlarının ölkəmizə yönələn təhdidlərinin qarşısının alınması üçün bu illər ərzində Azərbaycan üçün güclü iqtisadiyyat və müasir ordu qurmusunuz. Bununla yanaşı, Siz Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəldilməsi, ölkəmizin dünya birliyində layiqli yer tutması, güclü beynəlxalq tərəfdaşlar qazanması üçün uzaqgörən siyasət həyata keçirmisiniz. Bu baxımdan 44 günlük haqq savaşımızda bütün Azərbaycan xalqı həm də xarici siyasətdə əldə olunan uğurların möhtəşəmliyinə şahidlik etmişdir”.

Müraciətdə daha sonra qeyd edilir ki, indi Azərbaycan dövləti uzun tarixi dövrdən sonra Vətən müharibəsi Zəfərinin təntənəsini yaşayır. Azərbaycan ərazisində heç bir mənəvi, siyasi və hüquqi əsası olmadan yaradılan qondarma rejim böyük Qələbənin nəticəsində tarixin qaranlığına qərq olmuşdur: “Bu gün böyük siyasi iradənin, milli birliyin, güclü ordunun nəticəsində Azərbaycan bayrağı Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə dalğalanır. Azərbaycan Respublikasının Konstitusiyası bütün ölkə ərazisində vahid Ana qanun kimi tətbiq olunur. Yaşadığımız bu qürurlu anlar məhz güclü iqtisadiyyatımızın, qəhrəman ordumuzun və milli birliyimizin, həmrəyliyimizin nəticəsində mümkün olmuşdur.

Cənab Prezident, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar ölkəmizin xoşbəxt gələcəyi naminə bir daha siyasi həmrəyliyini bildirir, xalqımızın firavanlığı, dövlətimizin əbədi suverenliyi üçün apardığınız uğurlu daxili və xarici siyasətdə Zati-alinizə dəstəyini bəyan edir”.

**XQ**

KÖŞƏ

# İşığın mübarək, Füzuli!

## *Qarabağda bayraq yürüşü*

**Üç ildir Şuşaya bayrama gedir kimi gedirik. Köhnə təmas xəttindən başlanan görüntülər, viran qoyulmuş kəndlərimiz, izi silinmiş şəhərlərimiz ürək parçalayır, söz yox... Lakin Zəfər yolu ilə meşəli dağlara qalxdıqca, Şuşaya yaxınlaşdıqca, sanki, bu ağrılar azalır. Şuşaya qovuşmağın sevinci təsəlli olur. Bir daha Şuşada olmaq fürsətinin təkcə xoş duyğusu yox, həm də qısa müddətdə görülən bərpa işlərinin, çəkilən möhtəşəm yolların ürəyimizə doldurduğu qürur hissi ovqatımızı dəyişir.**



**Sabir RÜSTƏMXANLI,**
**Xalq şairi**

“Su gələn arxa bir də gələr!” deyib babalarımız – təbiətin dövr etməsinə və arasıkəsilmədən yenilənməsinə bel bağlayıb gözləyiblər. Ancaq indi gözləməyə vaxt yoxdur. Düşmənin 30 ildə dağıtdıqlarını ən qısa müddətdə əvvəlkindən daha gözəl şəkildə bərpa edib, ona, necə deyərlər, daha bir dağ çəkməliyik: yəni, sən dağıdıcısan – biz qurucu, sən ziyankarsan – biz yaradıcı, sən vəhşisən, insanlıqdan xəbərin yoxdur – amma biz izindən çiçək göyərən, addımından yol düşən, əlindən binalar ucaldan insanıq – Böyük İnsan. Dilinə görə dilçəyi olan, dünyanın bütün riyakar tələlərindən səbirlə keçib öz hədəfinə doğru gedən, yalandan, fitnədən uzaq, öz milli ləyaqətini diplomatiya bataqlıqlarından bacarıqla adladıb Vətəninə şöhrət gətirən İnsan!

Şuşada keçirilən Türk dövlətlərinin 1-ci Mədəniyyət Forumuna belə bir ovqatla gedirdik. Sürətlə tikilən İkinci Şuşa yolu, torpağa qayıdan nəfəs, özəlliklə düşmənin vəhşiliklə dağıtdığı Füzuli şəhərinin öz külündən yenidən doğulması görəni heyrətləndirir. Bu ilin əvvəlinə kimi Füzuli şəhərinin yerində daş qalaqlarından, uçuq divarlardan başqa bir şey yox idi. İndi isə xarabalıqlar arasından ucalan balaca bir şəhərin ağ evləri Günəş şüalarının altında göz qamaşdırır.



Yüz dəfə görsən də Daşaltıya doğru aşanda birdən- birə göz önündə açılan mənzərə, Şuşanın belinə dolanan kəmər yolların, quşqonmaz qayaların əzəməti adamı heyrətləndirir. Bu qayalardan qalxaraq Şuşanı düşmən işğalından azad edən Azərbaycan əsgərinin qəhrəmanlığı ilə bir daha qürur duyursan. Mən artıq neçənci dəfədir xarici ölkələrdən gəlmiş qonaqlara bu qayaları göstərib əsgərimizin Şuşaya buradan qalxdığını deyərkən onların necə heyrətləndiklərinin şahidi oluram.

Bu dəfə də həmin hal təkrar olunur: Birinci Türk Dünyası Mədəniyyət Forumuna gələnlər Azərbaycan əsgərinin gücünə və sarsılmaz ruhuna olan heyranlığımıza və sevgimizə şərik olurlar.

Bu il Türk Dünyasının Mədəniyyət paytaxtı – Baş kəndi elan olunmuş Şuşa payızın günəşli günündə elə bir saflıq və təmizlik haləsinə bürünüb ki, dağıdılmış məhəllələri, skleti qalmış evləri görmürsən sanki. Mənim gözümdə yenə Şuşa gənclik illərində xoş günlər keçirdiyimiz sənət beşiyidir. Şəhərin bugünkü mənzərəsinin üstündən gələcəyi görünür. Qısa müddətdə tikilmiş “Şuşa” oteli dünyada görüb qaldığım ən gözəl, müasir otellər səviyyəsindədir. Otaqlarının səliqə-sahmanından tutmuş, xidmətin səviyyəsinə, restoranındakı yeməklərin çeşidinə və keyfiyyətinə görə Bakının seçmə otellərinə nümunə ola bilər. Bu oteldə gələcək Şuşanın addımlarının səsini eşidirsən. Ancaq təkcə bu otel deyil, qısa müddətdə bərpa olunmuş muzeylər, otellər, məscidlər, gözəl orta məktəb binası da yavaş-yavaş şəhərin əski havasını özünə qaytarır. Lakin görülən işlərin miqyasını təsəvvür etmək üçün gərək əsas küçələrdən çıxıb şəhərin iç məhəllələrinə baxasan, onda bir-iki il sonrakı Şuşanı daha yaxşı təsəvvür etmək olur; çünki hər tərəfdə bərpa-tikinti işləri gedir.

Bir anlığa Şuşadan ayrılıb bütün Qarabağın coğrafiyasını göz önünə gətirsən onda Azərbaycanın hərbi gücü ilə yanaşı, iqtisadi gücü ilə də qürur duyarsan. Araz boyu çəkilən dəmir yolu və beynəlxalq səviyyəli avtomagistrallar, Zəngilanda və Laçında görülən işlər, Füzuli və Zəngilan aeroportları, Laçın –Kəlbəcər yolu, Kəlbəcəri Gəncə ilə birləşdirən yol, qırxa qədər tunel...Bütün bunlar savaşdan çıxmış ölkəmizin qısa müddətdə gördüyü işlərin bir qismidir.

Mən “Şuşa” otelində iki gün ərzində keçirilən, Türk dünyasının gələcəyinə işıq tutan mədəniyyət forumundan, TÜRKSOY-un çox mühüm müzakirələrindən, mədəni proqramlardan geniş danışmaq istəmirəm. Bunlar mətbuatda işıqandırıldı. Müzakirələrdəki çıxışımı da önə çəkmək istəmirəm; niyyətim daha çox bu səfərdəki ovqatımı çatdırmaqdır.

Oktyabrın 14-də forum başa çatdı. Avtobuslarımız Şuşadan çıxanda hava yenicə qaralmışdı. Zəfər yolu, sanki, qısalmışdı və eniş-yoxuşu da hiss olunmurdu. Ancaq məni ən çox sevindirən və kövrəldən Füzuli şəhərinin gecə mənzərəsi oldu. Şəhər işıq içində üzürdü, pəncərələrdən süzülən işıqlar 30 illik həsrət qaranlığını əridirdi. Balkonlardan paltar asılmışdı, başqa vaxtı buna hirslənsəm də, Füzulidə buna sevindim. Elə bildim işıqların hər biri Füzulidən olan dostlarımın işığıdır. “İşığınız mübarək, dostlar!” – deyə pıçıldadım !

Şuşada, Füzulidə duyduqlarımızı Laçında da yaşamışdıq. Bir azdan Xankəndidə, Xocalıda, Əskəranda, Xocavənddə, Ağdərədə də eyni duyğularla gəzib dolaşacağıq.

Mən Şuşa səfərimiz haqqında qeydlərimi yazandan bir gün sonra Ali Baş Komandan İlham Əliyev Qarabağ şəhərlərində Azərbaycan Bayrağını ucaltdı. Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyində Qarabağan millətə verdiyi hesabat onun Prezident kimi gördüyü böyük tarixi işlərin yekunu oldu. Xankəndidə ucaldılan bayrağın önündə cənab İlham Əliyev qalib sərkərdə inamı və qüruru ilə Qarabağın bütün bir əsrlik tarixinə nəzər saldı, dostlarımıza və düşmənlərimizə gərəkli mesajlar verdi.

Bu müraciət, əslində, onun 2020-ci ildə Şuşanın işğaldan azad edildiyi gün Şuşaya müraciətlə dediyi həyəcanlı sözlərin davamı idi. Prezident öz böyük Qələbə sevincini və Qarabağın gələcəyi ilə bağlı düşüncələrini xalqla paylaşdı. Onun Qarabağ şəhərlərini gəzib hər yeri gözdən keçirməsi, Kərkicahan, Malıbəyli kəndlərinə, Əsgəran qalasına baxması bu torpağın tarixi abidələri ilə maraqlanması Prezidentin bu gün yazmağa başladığı Qarabağ salnaməsinin gələcək fəsillərinə işıq tutur. Qarabağın dirçəlişi milli-mənəvi mühitimizə yeni hava gətirməklə yanaşı, Azərbaycanın iqtisadi gücünün də qat-qat artmasına səbəb olacaq.

17 oktyabr 2023-cü il, çərşənbə axşamı Xalq qəzeti

# Azərbaycan dünyaya Günəş kimi doğub

## Prezident İlham Əliyev Ümummilli lider Heydər Əliyevin bu arzusunu tarixi gerçəyə çevirib



**Müstəqil dövlətimizin banisi Ümummilli lider Heydər Əliyev ölkəmizi əsaslı islahatlarla inkişaf yoluna çıxaranda demişdi ki, Azərbaycan tezliklə dünyaya Günəş kimi doğacaq. Ulu öndərin yarımçıq qalmış arzu və əməllərini böyük inam və əmanət etdiyi Prezident İlham Əliyevin 20 illik müdrik və qətiyyətli siyasəti ilə Azərbaycan artıq dünyaya Günəş kimi nur saçır.**

Ölkəmizin son 20 ildə qazandığı uğurlardan bugünlərdə bütün dünya sürətli və əhatəli tərəqqi nümunəsi kimi danışır. Bu nailiyyətlər Heydər Əliyev siyasi məktəbinin varisi və layiqli davamçısı Prezident İlham Əliyevin siyasi iradəsinin, səmərəli fəaliyyətinin, düzgün, məqsədyönlü sosial-iqtisadi strategiyasının məntiqi nəticəsidir.

Dövlət başçısı prezidentliyinin ötən dövründə elə vaxtlar olub ki, heç kimin öncədən düşünə bilmədiyi bir səviyyədə qətiyyət nümayiş etdirib. Ölkə rəhbəri atdığı addımlarla Azərbaycanı tək Cənubi Qafqazda deyil, Qərblə Şərqin, Şimalla Cənubun qovuşduğu böyük bir regionda ən nüfuzlu bir dövlətə çevirib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 20 ildə Azərbaycanın iqtisadiyyatı 4 dəfədən çox böyüyüb, qeyri-neft sektorunda istehsal olunan ümumi daxili məhsulun nominal həcmi 16, dövlət büdcəsinin gəlirləri 30 dəfəyə qədər, Dövlət Neft Fondunun strateji valyuta ehtiyatları 67 dəfədən çox artıb. Əgər 2003-cü ildə dövlətimizin xarici borcunun ÜDM-də payı 21,6 faiz idisə, 2022-ci ildə həmin rəqəm 9,5 faiz təşkil edib. Bu göstərici ilə Azərbaycan dünyanın ən az borclanan ölkələri siyahısında qərarlaşıb. Bütün bunlar Azərbaycan Prezidentinin rəhbərliyi ilə sözügedən dövrdə əldə olunan iqtisadi uğurların ümumi mənzərəsini əks etdirir. Bu müddətdə iqtisadiyyatın digər sahələrində, ölkənin sosial həyatında və maliyyə sektorunda da inkişaf dinamikası yüksələn xətlə nəzərə çarpıb.

Azərbaycanın qısa zamanda bu qədər qüdrətli bir dövlət kimi tanınması respublikamızı özündən asılı vəziyyətə salmaq istəyənlərin arzularını gözündə qoyub. Bu gün dövlətimiz güclü iqtisadiyyatı, kifayət qədər dayanıqlı sosial durumu, yetərincə güclü ordusu ilə vaxtilə bir məkanda birləşdiyimiz respublikaların hamısına nümunədir. Beynəlxalq təşkilatların müəyyənləşdirdikləri bir çox reytinqlərdə Azərbaycan bugünkü uğurlar ilə nəinki MDB ölkələrini qabaqlayır, hətta dünyanın bir çox inkişaf etmiş ölkələrini də geridə qoyur.

Azərbaycan Prezidentinin müdrik siyasəti, dövlətimizin güc-qüdrəti ilə 30 il işğalda saxlanılan ərazilərimiz düşməndən geri alındı. Eyni zamanda, bütün dünyaya separatizmin kökünü necə kəsməyin indiyə qədər mövcud olmayan nümunəsi də sərgiləndi. Dünyanın aparıcı ölkələrinin hərb məktəblərinin 44 günlük Vətən savaşında ordumuzun döyüş təcrübəsini öyrənməsi Azərbaycanın bir dövlət, bir millət olaraq dünya miqyasında möhtəşəm uğurunun daha bir təsdiqi oldu və respublikamızın nüfuzundan xəbər verdi.

Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə son 20 ildə aparılan islahatlar ölkə həyatının bütün sahəsini əhatə edib. Paytaxtımızın, şəhər və rayonlarımızın siması müasirləşib. Respublikamız bütün dünyaya nümunə ola biləcək ictimai-siyasi sabitlik adasına çevrilib. Elə buna görə də Bakı şəhəri müxtəlif nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi bir məkan kimi tanınıb.

Əlbəttə, belə bir ab-havanın, sağlam mühitin yaranması üçün güclü iqtisadiyyatın olması zəruri idi. Cənab İlham Əliyev 2003-cü il oktyabr ayında ölkə Prezidenti seçildiyi ilk gündən bunun önəmli olduğunu hər kəsdən daha yaxşı dəyərləndirə bildi. Dövlət başçısı iqtisadiyyatı neftlə bağlı olan Azərbaycanda bu asılılığının aradan qaldırılmasının strategiyasını müəyyənləşdirdi. Hakimiyyətinin ilk vaxtlarından "biz bundan sonra elə yaşamalıyıq ki, sanki, bir neft ölkəsi deyilik və neftimiz yoxdur" deyən Prezident "qara qızıl"a bağlı iqtisadiyyatın gələcəyini layiqincə qiymətləndirərək daha uzaq perspektivə diqqət yetirməyi bacardı. "Neft pulları"nın həmişəlik olmayacağını söyləyən Prezident İlham Əliyev iqtisadiyyatın köklü şəkildə yenidən qurulması işlərinə start verdi.

Ölkə iqtisadiyyatının real sektorunun sürətli inkişafı bu sahəyə münbit fəaliyyət meydanı yaradılacağı halda mümkün idi. Bunun vacibliyini qiymətləndirən dövlət başçısı 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları çərçivəsində iri infrastruktur layihələrinin reallaşdırılmasına qərar verdi. Ötən dövr ərzində bölgələrin enerji, qaz, su təchizatının yüksək səviyyədə təmin edilməsi və yol infrastrukturunun yenidən qurulması sahəsində inqilabi nəticələrə gətirib çıxaran layihələr həyata keçirildi.

2014-cü ilin ikinci yarısından etibarən heç kimin gözləmədiyi halda dünya bazarlarında neftin qiymətləri kəskin şəkildə aşağı düşməyə başladı. Neft gəlirlərinin qısa zaman kəsiyində azalması ölkə iqtisadiyyatının yenidən qurulması və onun qeyri-neft sektoruna davamlı şəkildə transformasiya olunması sahəsində bəzi problemlər yaratdı. Neftin qiymətləri ətrafında gedən siyasi oyunlar vəziyyəti bir qədər də mürəkkəbləşdirdi.

Neft qiymətləri ətrafında baş verən bu proseslərin nə qədər davam edəcəyini müəyyənləşdirmək çətin olduğundan Prezident İlham Əliyev gözləmə mövqeyi tutmadı, ölkədə post-neft dövrünün başlandığını rəsmi şəkildə bildirdi. Yeni dövr düşünülmüş iqtisadi siyasətlə, praktik olaraq yeni iqtisadi modellə idarə olunmağa başlandı. 2015-ci ilin son aylarından ölkədə azad sahibkarlığın inkişafını gerçəkləşdirən və ona hər yerdə "yaşıl işıq" yandıran mühüm qərarlar qəbul edildi. Azərbaycan iqtisadiyyatının bütün istiqamətlər üzrə hərtərəfli tərəqqisini nəzərdə tutan strateji yol xəritələri təsdiqləndi. Bu sənədlərin işlənib hazırlanmasında yerli xüsusiyyətlər nəzərə alınmaqla beynəlxalq təcrübədən geniş istifadə edildi və bu işə dünyanın aparıcı mütəxəssisləri cəlb olundu.

Bu gün Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə real sektorun əsas istiqamətləri üzrə ölkə iqtisadiyyatında inqilabi dəyişikliklər baş verməkdədir. Qeyri-neft sənayesində iri və orta istehsal müəssisələrinin qurulması yaxın gələcəkdə Azərbaycanı xam neft satan ölkədən neftdən hazırlanan məhsulların ixracatçısına çevirəcək. Bu istiqamətdə artıq ciddi uğurlar əldə olunmağa başlayıb.

Azərbaycanda ənənəvi sahə olan aqrar sektor öz inkişafının yeni mərhələsini yaşayır. İndi Azərbaycan hökuməti qeyri-neft sənayesi və kənd təsərrüfatında istehsal ediləcək məhsulların "Made in Azerbaijan" brendi ilə dünya bazarlarında öz layiqli yerini tutması istiqamətində ciddi layihələr həyata keçirir. Dünyanın aparıcı ölkələrində respublikamızın ticarət evləri yaradılır və Azərbaycan brendi olan məhsulların yeni bazarları müəyyənləşdirilir.

Azərbaycan həm də turizm dövlətinə çevrilməkdədir. Bunun üçün hər cür şəraiti olan ölkəmizdə cənab İlham Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən qərarların əhəmiyyəti misilsizdir.

Azərbaycanın dünyaya daha yaxından tanıdılması istiqamətində ilk addım kimi Bakıda keçirilən "Eurovision" mahnı müsabiqəsi dünyanın diqqətini ölkəmizə cəlb etdi. Bunun ardınca respublikamızda bir-birindən əhəmiyyətli beynəlxalq tədbirlərin– 2015-ci ildə beynəlxalq aləmi heyran edən birinci Avropa Oyunlarının, 2016-cı ildən etibarən "Formula 1" yarışlarının, 2017-ci ildə isə IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkili dünyanın diqqətini iri planda respublikamıza yönəltdi. Yüksək səviyyədə keçirilən bu tədbirlər, eyni zamanda, Azərbaycanın bütün dünyaya təqdimatı demək idi. Bu təqdimatın məntiqi nəticəsi isə göz önündədir. İndi ölkəmizin hər yerində, xüsusilə də Bakı şəhərində əcnəbi turistlərin sayının nə qədər artdığı aydın görünür.

Cənab İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyata böyük töhfə verən istiqamətlərdən biri də ölkəmizin əlverişli coğrafi mövqeyindən məharətlə istifadə etməklə onu tranzit yükdaşımalar sahəsində nəhəng logistik haba çevirmək oldu. Son bir neçə il ərzində bununla bağlı görülən işlərə diqqət yetirməklə, demək olar ki, Azərbaycan bu gün Qərblə Şərq, Şimalla Cənub arasında tranzit yükdaşımaların lokomotivinə çevrilib. Tarixi İpək yolunun bir qolu kimi Şərqlə Qərbi birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolunun, Cənub–Şərqi Asiya ölkələrindən, eləcə də Hindistandan tranzit yüklərin Azərbaycan üzərindən Şimala və Qərbə daşınmasını hədəfləyən Şimal–Cənub Dəhlizinin və Ələt zonasında Xəzər hövzəsinin ən böyük Beynəlxalq Ticarət Limanının tikintisi, əslində, bu sahədə yeni eranın təməlini qoydu. Bütün bu layihələr və respublikada tranzit yükdaşımaların sistemləşdirilərək müasir bazarın tələblərinə uyğun yenidən qurulması Prezident İlham Əliyevin şəxsi təşəbbüsünün nəticəsidir.

Bu layihələrin icrası Azərbaycanı regionun ən böyük tranzit yükdaşımalar dəhlizinə çevirməklə ölkəmiz üzərindən milyonlarla ton yüklərin daşınmasına şərait yaratdı. Bu nəhəng yük axını Azərbaycana böyük həcmdə valyuta gətirdi. Şərqlə Qərbi birləşdirən Orta Dəhlizin açılması və onun hazırda İran üzərindən Naxçıvana və oradan Türkiyə və Avropaya uzanması istiqamətində atılan real addımlar isə ölkəmizə böyük iqtisadi və siyasi dividendlər gətirməklə dünya ticarət məkanında ciddi yenilik yaratdı.

Ölkə rəhbərinin iradəsi ilə ərsəyə gələn və bütün dünyanın diqqət mərkəzində olan ən böyük transmilli layihələrdən biri də Cənub Qaz Dəhlizidir. Bu layihə Prezident İlham Əliyevin daha bir şahanə əsəridir və onun reallaşması bilavasitə dövlət başçısının iradəsi və qətiyyəti nəticəsində mümkün oldu. Layihənin gerçəkləşməsi ilə bağlı yaradılan çətinliklərə və təzyiqlərə baxmayaraq cənab İlham Əliyev bütün məsuliyyəti öz üzərinə götürərək 11 beynəlxalq şirkətin, 7 hökumətin və 11 qaz alıcısının sıx əməkdaşlığını təmin edə bildi. Uzun illər ərzində qaz təchizatının şaxələndirilməsini arzulayan Avropa dövlətlərinin bu istəyini məhz Prezident İlham Əliyev reallaşdırdı. ABŞ-nin də böyük dəstəyi ilə ərsəyə gələn XXI əsrin bu nəhəng enerji layihəsi Azərbaycana iqtisadi səmərə ilə yanaşı, siyasi uğur da qazandırdı. Azərbaycan Avropanın strateji tərəfdaşına çevrildi.

Bütün bu görülən işlər və əldə olunan yüksək nəticələr hesabına indi Azərbaycan həm Qərb, həm də Şərq üçün, sözün əsl mənasında, ən etibarlı strateji tərəfdaşa çevrilib. Müasir və multikultural dəyərləri ilə dünyəvi bir dövlətə çevrilmiş gənc Azərbaycan Respublikasının qısa bir zamanda əldə etdiyi bu uğurlar, şübhəsiz ki, Prezident İlham Əliyevin gərgin əməyinin məntiqi nəticəsidir.

Bu gün bütün sahələrdə Cənubi Qafqazın lider dövləti statusunu qazanan və dünyanın ən nüfuzlu dövlətlərindən birinə çevrilən Azərbaycan illərdən bəri iqtisadi tənəzzül içərisində çapalayan, 35 il ərzində "Qarabağ Ermənistandır" mifi ilə xumarlanan və ordumuz tərəfindən 44 gündə darmadağın edilən işğalçı ölkəyə gələcək mövcudluğu böyük şübhə doğuran bir dövlət kimi baxır.

***Fikrət YUSİFOV,***
***iqtisad elmləri doktoru, professor***

**17 Oktyabr Füzuli Şəhəri Günüdür**

# Zəfərin Füzuli zirvəsi

**Məlum olduğu kimi, Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli sərəncamı ilə 17 Oktyabr – Füzuli Şəhəri Günü elan edilmişdir. Düz 3 il əvvəl məhz bu gün Füzuli şəhəri düşmən əsarətindən azad edilmişdir. Bu əlamətdar hadisə təkcə dahi şairin adını daşıyan rayonun sakinlərində deyil, ölkəmizin hər bir vətəndaşının qəlbində böyük ruh yüksəkliyi və coşqu yaratmışdır.**

Üç il əvvəl işğalçı Ermənistanın təxribatlarına cavab olaraq, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il 27 sentyabr tarixində Vətən müharibəsi başlanmışdır. Bu gün qürur hissilə deyə bilərik ki, döyüşlərin ilk günündən igid əsgər və zabitlərimiz doğma torpaqlarımızın azadlığı uğrunda böyük şücaətlər və qəhrəmanlıqlar göstərmişdir.

Füzuli rayonunun azad edilməsi uğrunda savaş Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində cənub-şərq istiqamətində apardığı ən əhəmiyyətli döyüşlərdən biri kimi tarixə düşmüşdür. Hərbi ekspertlər bildirirlər ki, döyüşlərin ilk saatlarından Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması ordumuza strateji üstünlüklər vermişdir.



Bununla belə bir həqiqəti söyləmək lazımdır ki, Füzuli uğrunda savaş Vətən müharibəsi zamanı ən ağır döyüşlərdən olmuşdur. Belə ki, bu ərazidə 30 il ərzində düşmən cəbhənin təmas xəttində möhkəm istehkamlar qurmuşdu. Bir çoxları Füzulini işğaldan azad etmək üçün həftələrlə, bəlkə də aylarla vaxt lazım olacağını düşünürdü.

Azərbaycan əsgəri Vətən torpaqları naminə bütün maneələri ildırım sürətilə keçməyə qadir olduğunu bir daha sübut etdi. Dünya şokda idi. Yeri gəlmişkən, ordumuz Şuşada da düşmənə və bütün dünyaya belə bir şoku yenidən yaşadacaqdı...



Bəli, Azərbaycan Ordusu bu istiqamətdə yüksək peşəkarlıq və döyüş əzmi nümayiş etdirərək, 2020-ci il oktyabrın 17-də Füzuli şəhəri daxil olmaqla, rayonun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndlərini işğaldan azad etdi. Bir daha vurğulamaq istəyirik: Bu tarixi qələbə 44 günlük şanlı savaşın gedişatında həlledici mərhələlərdən biri idi!

Xatırladaq ki, Füzuli şəhəri və rayonun böyük hissəsi 23 avqust 1993-cü il tarixində erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Ermənistanın silahlı qüvvələri ilə mübarizədə 663 nəfər şəhid olmuş, 181 nəfər əsir və itkin düşmüşdür.

5 yanvar 1994-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hücumu nəticəsində Füzuli rayonun 22 yaşayış məntəqəsi işğaldan azad olunmuşdur. Füzuli rayonunda işğaldan əvvəl 2 şəhər, 16 qəsəbə, 82 kənd və başqa yaşayış məntəqələri mövcud olmuşdur.

Hazırda rayonun əhalisi təxminən 144 min nəfərdir. Məlumat üçün bildirək ki, Füzuli rayonu bərəkətli əkin torpaqlarına malikdir. Ərazidəki Quruçay, Köndələnçay, Çərəkən çayları Araz hövzəsinin çaylarıdır. Burada aqrar sahənin intensiv inkişafı üçün əlverişli şərait mövcuddur.

Hörmətli oxucular! Sizin üçün bu faktın da maraqlı olacağını düşünürük. Belə ki, Füzuli şəhərinin bünövrəsi hələ 1827-ci ildə qoyulmuşdur. Qarabulaq adlanan yaşayış məskəninin əsasında 1930-cu ildə rayon təşkil olunmuş və Qaryagin adlandırılmışdır. 1959-cu ilin aprelində dahi şair Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə rayonun adı dəyişdirilərək Füzuli adlandırılmışdır.

İşğaldan öncə Füzuli rayonu tarixi-dini abidələrlə, xüsusən də türbələrlə zəngin bir ərazi olmuşdur. Bu abidələr sırasına rayonun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babi Yaqub (XIII əsr) türbəsini, Aşağı Veysəlli kəndində XIV əsrə aid Mirəli türbəsini, Əhmədalılar kəndində orta əsr qəbiristanlığının ərazisində sənduqə formalı qəbirdaşının üzərindəki türbəni, XIX əsrin Cəlil türbəsini aid etmək olar. Düşmən rayonun tarixi-mədəniyyət abidələrinin bir qismini vandalcasına dağıtmışdır.

Deyirlər ki, haqq nazilər, üzülməz. Azərbaycan xalqı, təbii ki, heç vaxt doğma Qarabağın işğalı ilə barışa bilməzdi. Bu mənəvi-psixoloji məqam ağır döyüşlərdə də özünü göstərdi. Füzuli uğrunda döyüşlərdə Milli Ordumuzun şücaəti qarşısında düşmən son mərhələdə öz silahlarını yerə qoyub qaçmışdır. Bu gün bütün dünya etiraf edir ki, Azərbaycan Ordusu hazırda yüksək döyüş qabiliyyətinə və texniki təminata malikdir.

2020-ci il noyabrın 26-da "Füzulinin azad olunmasına görə" medalı təsis edilmişdir. Prezident İlham Əliyevin sərəncamı ilə Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 25 min 301 hərbi qulluqçusu "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Bu gün Füzuli rayonu və onun yaşayış məntəqələri yenidən qurulur. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş, 2022-2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində Böyük Qayıdışa dair I Dövlət Proqramı" böyük uğurla həyata keçirilir.

Cəmi 9 ayda Füzuli Beynəlxalq Hava Limanı inşa edilərək istifadəyə verilmişdir. Bu mühüm obyektin açılışı mərasimində Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan iştirak etmişlər.

Son vaxtlar rayonun ərazisində çox sayda bağça, məktəb, xəstəxana tikilmiş, bir-birindən rahat yollar, yaraşıqlı parklar salınmış, yaşayış kompleksləri ucaldılmışdır. Bu istiqamətdə layihələrin icrası davam etdirilir. Füzuli rayonu sakinlərinin bir qismi artıq doğma yurd yerlərinə qayıtmışdır.

Yeri gəlmişkən, Prezident İlham Əliyev oktyabrın 16-da Füzuli rayonuna səfər etmiş, burada bir sıra yeni sosial və infrastruktur layihələrinin təməlini qoymuşdur. Bəli, dahi şairin adını daşıyan rayonun, bütövlükdə Qarabağın yeni növrağı başlamışdır.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Roma papası hayların papası imiş

## II Fransiskin avantürizmə haqq qazandırması nə saçına yaraşır, nə də xaçına



**Əslində, Roma papası II Fransiskin ermənipərəstliyi ilk baxışdan təəccüblü deyil. Onun əvvəllər də indikinə oxşar qəbuledilməz fikirlər söylədiyinin şahidi olmuşuq. Təəssüf etmişik ki, belə ali səviyyəli din xadimi necə bu qədər avantürist mövqe tuta bilər? Ola bilər, tutduğu mövqenin fərqində deyil. Nə deyək? Ancaq deyilməli, diqqətə çatdırılmalı bir sıra məqamlar var.**

Həqiqətən, Roma papasının erməni avantürizmini, belə demək mümkünsə, leqallaşdırmağa çalışması qəribədir. Hər halda, o, Müqəddəs Pyotr meydanına toplaşmış zəvvarlara müraciətində İsraildə və Qəzza sektorunda baş verən hadisələrə münasibət bildirməklə yanaşı, Qarabağdakı vəziyyətdən narahatlığını başqa cür dilə gətirə, məsələyə sırf humanizm nöqteyi-nəzərdən yanaşa bilərdi. Amma yanaşmadı və dedi: "Məni Qarabağda baş verənlər də az narahat etmir. Zorakı köçürülmədən sonra, bunun özünü də qəbul etmək çox çətindir, bölgədə qalan məbəd və dini yerlərin qorunmasına çağırıram".

Əlbəttə, ümumən papanın Qarabağda baş verənlərdən narahat olması mümkündür. Yəni, buna görə heç bir iradımız yoxdur. Ancaq onun bölgənin erməni əhalisinə qarşı zor tətbiq edildiyini vurğulaması yolverilməzdir. Nəzərə alaq ki, hazırda Ermənistan hakimiyyəti, o cümlədən xaricdəki erməni lobbi və diaspor təşkilatları özlərinin anti-Azərbaycan ritorikalarına "etnik təmizləmə" və sair bu sayaq deyimləri daxil ediblər. Yəni, II Fransiskin çıxışına qədər də bu deyimlər "dəbdə" idi. Görünür, həlledici nöqteyi papa özü qoymaq qərarına gəlib. Əlbəttə, qərarı çox yanlışdır.

Ona görə ki, II Fransisk Azərbaycan dövlətinin ona xoş münasibətini bilməmiş deyil. O, Qarabağdakı erməni dini abidələrinin qorunmasından danışırsa, məsələ burasındadır ki, hazırda Ermənistan dövlətinin dünyada qopardığı haray-həşirdə də başlıca motiv elə budur. Guya, Azərbaycan bölgədəki erməni mirasını yerlə-yeksan edəcək və sair və ilaxır. Deməli, nəticəyə gəlirik ki, papa belə əsassız fikirlərin dünyada daha çox reaksiya doğurmasına dəstək verirmiş kimi davranır. Halbuki o, ən azı 2016-cı ildə Bakıya səfərini xatırlamalı idi. Azərbaycanın dinlərarası, mədəniyyətlərarası münasibətlərin möhkəmləndirilməsi, multikulturalizm, tolerantlıq ənənələrinin təşviqi baxımından dünya üçün bir nümunə olduğunu da həmçinin.

Yaxşı olardı ki, II Fransisk Bakıda erməni kilsəsinin qorunduğunu da yada salardı. Ən başlıcası isə Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanın San Marçellinio və Pietro katakombalarının əsaslı təmirini və bərpasını düşünməsi şərtdir. Axı, Azərbaycandan başqa hansısa digər müsəlman ölkəsinin Vatikanın muzeylərinin təmirinə maliyyə yardımı ayırması nümunəsi yoxdur. Yəni, həm də buna görə papanın Azərbaycanın tarixi abidələrə hörmətsizliyin deyil, ehtiramın nümunəsi olduğunu yada salaraq, faktiki olaraq, erməni avantürizminin musiqisinə "züy tutması" ona hörmət gətirmir.

***

Qeyd edək ki, II Fransisk 2016-cı ildə Ermənistanda səfərdə olarkən, 1915-ci ildə Osmanlı Türkiyəsində baş verənləri soyqırımı kimi qiymətləndirməklə də gündəmə gəlmişdi. Həmin vaxt onun bu mövqeyi Türkiyə Cümhuriyyəti tərəfindən sərt şəkildə qınanmışdı. Ölkəmizlə bağlı müstəviyə gəlincə də papanın indiyədək ermənilərin tərəfdarı qismində çıxış etməsini təsdiqləyən məqamlar yetərincədir. Götürək elə 44 günlük müharibə dönəmini. Bəli, anlayırıq ki, din xadimi müharibənin dayandırılmasına dair çağırış səsləndirməlidir. 2020-ci ildə də belə etmişdi. Ancaq, nədənsə, həmin çağırışdan belə çıxmışdı ki, müharibə tərəfdarı olan Azərbaycandır, Ermənistan yox.

***

Daha bir məqama diqqət yetirək. 2022-ci ilin dekabrında da Papa II Fransisk özünün erməni təəssübünü işə salmışdı. Təxminən belə: Laçın yolunu açın, ermənilər yazıqdı, qış mövsümüdür filan. "Mən Cənubi Qafqazda Laçın dəhlizində yaranmış vəziyyətdən narahatam, xüsusilə qış mövsümündə əhalinin ağır humanitar vəziyyətindən narahatam", – deyən baş kahin Cənubi Qafqaza yalnız, xütbəsini səsləndirdiyi balkon kimi dar müstəvidən baxmaqla kifayətlənmişdi. Halbuki, daha geniş yanaşmalı və məsələnin əsl mahiyyətini nəzərə almalı idi.

Bəli, o zaman açıq görünmüşdü ki, II Fransisk Ermənistanın dünyaya car çəkdiyi dildə danışır. Bu isə təkcə xristian təəssübkeşliyi deyil, həm də ədalətsizlikdir. Təsəvvür edin, papa 2022-ci ilin dekabrında humanitar fəlakətdən danışır, amma ekoloji fəlakət barədə susurdu. Fərqinə varmırdı ki, Qarabağ ermənilərin də ekoloji fəlakətdən zərər görürlər. Olmazdımı ki, baş kahin bununla bağlı çağırış edib deyəydi ki, insanların sağlam mühitdə yaşamaları şərtdir, ekoloji terror aradan qaldırılmalıdır? Görünür, olmazmış...

Onu da bildirək ki, Roma papasının indiki erməni təəssübü onun ötənilkinə bir qədər fərqli rakusdan baxmağı zərurələşdirməkdədir. Məlumdur ki, ötən il II Fransisk erməni katolikosu II Qareginlə həmrəylik nümayiş etdirmişdi. Birincinin ikinci ilə eyni vaxtda Qarabağ ermənilərini düşünməsinə və onların taleləri ilə bağlı narahatlıq ifadə etmələrinə başqa cür yanaşmaq mümkün deyildi.

Bəli, din çox həssas amildir. Üstəlik, Azərbaycanla Ermənistan arasındakı mübahisəli durumda bu həssaslığın nəzərə alınmaması təəssüf doğurur. Papanın istər Laçın yolu ilə bağlı ötənilki mövqeyi, istərsə də hazırda Qarabağ ermənilərinin bölgəni könüllü şəkildə tərk etmələrinə düzgün qiymət verməməsi elə təəssürat yarada bilər ki, sanki, müsəlman Azərbaycanı xristian erməniləri sıxışdırmaq yolunu tutur. Halbuki, məsələnin qoyuluşu heç də belə deyil.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Bu, həmin Aqanbekyandır ki...

## Fransa isə 36 ildən sonra da separatçılara "züy tutur"

**Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra etdiyi çıxışında çox mühüm məsələlərə toxundu. Dövlətimizin başçısı Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının tarixindən bəhs edərək bildirdi ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində ermənilərə qarşı heç bir ayrı-seçkilik olmayıb: "Bu sözlərimi təsdiq etmək üçün bir misal gətirə bilərəm, o vaxt Dağlıq Qarabağ Muxtar Vilayəti Partiya Komitəsinin doqquz nəfərdən ibarət büro üzvü var idi. Onlardan səkkizi erməni, biri azərbaycanlı idi, o da Şuşa Şəhər Partiya Komitəsinin birinci katibi. Yaxşı, əgər ayrı-seçkilik var idisə, onda bax, gətirdiyim misal nəyi göstərir? Birinci katib erməni, icraiyyə komitəsinin sədri erməni, bütün digər vəzifəli şəxslər, burada heç bir ayrı-seçkilik yox idi".**

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanda erməni dilində qəzet çap olunurdu: "Yəni, o illərdə olub və bilirsiniz biz o illəri də kənara qoya bilmərik. Əksinə, o illəri xatırlayanlar o xatirələri gənc nəsillə bölüşsünlər. Çünki o olub, ancaq sonra nə olub? 1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırıldı, Sovet İttifaqı Kommunist Partiyası Siyasi Bürosunun üzvlüyündən çıxarıldı. SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən də çıxarılmışdı. İki həftə keçməmiş erməni millətçiləri məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan Ermənistana verilsin. Bunu da qaldıran Moskvada oturan erməni millətçisi idi. Bu məsələ harada qaldırıldı? Fransanın bir qəzetində, yenə Fransa. Yəni, bu gün o tarixə qayıdarkən və o hadisələri təhlil edərkən bir daha görürsən ki, heç bir şey təsadüfi olmayıb".



Dövlətimizin başçısının nəzərdə tutduğu – DQMV-nin Azərbaycandan ayrılaraq Ermənistana verilməsi məsələsini qaldıran, münaqişəni qızışdıran şəxs Abel Aqanbekyandır. Bu həmin Aqanbekyandır ki, 1985-1991-ci illərdə – "yenidənqurma" dövründə Sov. İKP MK-nın Baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri işləyib. SSRİ Elmlər Akademiyasının akademiki olub.

Prezident İlham Əliyevin qeyd etdiyi Fransa qəzeti isə həmin ölkədə çap olunan "Humanite" qəzetidir. 1987-ci ilin noyabrın 18-də "Humanite" qəzetində A.Aqanbekyanın müsahibəsi dərc olunub. Başabəla müşavir–akademik həmin müsahibədə deyib: "Mən Qarabağın Ermənistanın tərkibində olmağını istəyirəm. Bir iqtisadçı kimi hesab edirəm ki, Qarabağ iqtisadi cəhətdən Ermənistana daha çox bağlıdır, nəinki Azərbaycana".

Onu da qeyd edək ki, gündəlik nəşr olunan "Humanite" qəzeti Fransa Kommunist Partiyasının orqanı olub və erməni diasporuna xüsusi simpatiyası ilə seçilib.

***

Prezident İlham Əliyev separatçıların qurduğu oyuncaq rejimin "rəhbər şəxslərinin" iş yerləri olmuş, hazırda üzərində Azərbaycan Dövlət Gerbi, qarşısında isə Dövlət Bayrağının ucaldığı binanı göstərərək bildirdi ki, bu bina keçən əsrin 60-cı illərində Azərbaycan büdcəsi hesabına inşa edilmişdir: "O vaxt Dağlıq Qarabağ Muxtar Vilayəti Partiya Komitəsinin binası idi. Bu binada bir çox şəxslər oturub. Vaxt var idi burada azərbaycanlılarla ermənilər dostluq şəraitində yaşamışlar. Vaxt var idi nəinki Xankəndidə, Qarabağda, Bakıda, Gəncədə, İrəvanda, Göyçədə, Zəngəzurda, Dərələyəzdə, Basarkeçərdə azərbaycanlılar və ermənilər dostluq şəraitində yaşamışlar. Mən o illəri xatırlayıram və xüsusilə Heydər Əliyev sovet Azərbaycanında rəhbərliyə gələndən sonra Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdi. Düz 18 il. 1969-cu ildən 1982-ci ilə qədər bir dənə də xoşagəlməz hala rast gəlinməmişdi. Mən xatırlayıram, atamla birlikdə burada olmuşam. O ab-havanı mən xatırlayıram. Burada, sözün əsl mənasında, səmimi bir ab-hava şəraitində təmaslar var idi, birgə işlər görülürdü. Bu gün Sərsəng su anbarının üzərində Azərbaycan Bayrağını qaldırdıq. Heydər Əliyevin təşəbbüsü ilə bölgənin, kənd təsərrüfatının inkişafı üçün 1976-cı ildə Sərsəng su anbarı, Suqovuşan su anbarı inşa edilmişdir. O vaxt nə qədər böyük investisiyalar qoyulmuşdu. Ağdamdan Xankəndiyə dəmir yolu çəkildi, burada ali məktəb yaradıldı və Xankəndidə gördüyünüz binaların mütləq əksəriyyəti məhz o illərdə inşa edilmişdir. Kənd təsərrüfatı inkişaf edirdi. O vaxt isə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti 100 min tondan çox üzüm tədarük edirdi. Bütün bunlar o vaxt kolxozlarda, sovxozlarda işləyənlər üçün gəlir mənbəyi idi, insanlar burada yaxşı yaşayırdılar".

Bəli, o dövrün statistik rəqəmlərinə baxdıqda, DQMV-də iqtisadi göstəricilərin həqiqətən də yüksək olduğunu görmək mümkündür. Təəssüf ki, vilayətdə situasiya kəskinləşəndən sonra münaqişənin səbəbinin Qarabağın sosial-iqtisadi sferada geri qalması və hətta, keçmiş DQMV-nin problemlərinə, onun əhalisinə, guya, respublika rəhbərliyi tərəfindən qeyri-düzgün münasibət bəslənməsi barədə fikirlər peyda oldu. Halbuki, sosial-iqtisadi inkişaf baxımından DQMV Azərbaycan və Ermənistanın orta respublika göstəricilərini keçmişdi. Vilayətin iqtisadiyyatı tam olaraq məhz Ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə inkişaf etdirilib. Vilayətin mərkəzinədək dəmir yolu çəkilib, Xankəndidə vağzal inşa olunub, yeni hava limanı tikilib. Böyük müəssisələr yaradılıb: ayaqqabı fabriki, elektrotexnik zavodu, elektron sənaye üçün kondensatorlar zavodu, kənd təsərrüfatı üçün maşınlar istehsalı və digərləri. Kənd təsərrüfatı sahəsində də əhəmiyyətli tədbirlər görülüb.

İki böyük su anbarı (Sərsəng və Suqovuşan) və su elektrik stansiyası, suvarma kanalları inşa edilib. Bu da Tərtər, Goranboy, Yevlax, Bərdə, Ağdam və Ağcabədi rayonlarının su təchizatını xeyli yaxşılaşdırıb.

Üzüm istehsalı 1970-ci illərin əvvəllərindəki 50-60 min tondan 1980-ci ildə 120-130 min tona yüksəlib. Heyvandarlıq istehsalı, demək olar ki, iki dəfə artıb. 170 min nəfər əhalisi olan kiçik vilayət üçün bu, az deyildi. Sosial-mədəni sahədə də çox işlər görülüb. Xankəndidə Pedaqoji İnstitut yaradılıb. Yaşayış evləri, məktəblər, poliklinikalar tikilib. Dram Teatrı yenidən qurulub və yeni avadanlıqlarla təchiz edilib. Böyük bir Siyasi Maarif evi tikilib, yeni abidələr açılıb... Əlbəttə, görülən işlər bununla yekunlaşmır. Siyahını daha da uzatmaq olar. Ancaq erməni xalqının A.Aqanbekyan, Zori Balayan, Silva Kaputikyan kimi "ziyalı"ları bunları görmək istəmədilər. Onlar iki xalq arasında nifaq toxumu səpdilər. Erməni xalqı da onların xəstə təxəyyülünün məhsulu olan "böyük Ermənistan" mifinin əsirinə çevrildi. Nəticədə, separatçılar Azərbaycanda mərkəzi hakimiyyətin zəifliyindən, səriştəsizliyindən və acizliyindən istifadə edərək keçmiş DQMV-ni və ona bitişik 7 rayonumuzu işğal etdilər.

Ancaq Azərbaycan xalqı işğalla barışmadı. Güclədi və 2020-ci ildə 44 günlük Vətən müharibəsi apararaq torpaqlarını azad etdi. 2020-ci il sentyabrın 19-20-də keçirilən lokal antiterror tədbirləri nəticəsində isə separatçıların nəzarət etdikləri digər ərazilər də təmizləndi. Nəhayət, oktyabrın 15-də həmin ərazilərdə, o cümlədən Xankəndi şəhərində Azərbaycan Bayrağı ucaldıldı.

İndi Ermənistandakı revanşistlər yenə vurnuxurlar. Xarici havadarlarının, əsasən Fransanın yardımı ilə nəsə etməyə çalışırlar. Bu yaxınlarda Ermənistanın "Demokratik konsolidasiya" partiyasının sədri Suren Petrosyan "Artsaxın qorunması komitəsi" yaradıb. Deyib ki, məqsəd "Artsaxın və qurumları"nın qorunmasıdır. Onların bu hərəkəti yalnız acı gülüş doğurur.

Oktyabrın 16-da isə Ermənistan baş naziri Nikol Paşinyan Fransanın Strasburq şəhərinə işgüzar səfərə gedib. Oktyabrın 17-də onun Avropa Parlamentində çıxışı olacaq. Bu, həmin Avropa Parlamentidir ki, oktyabrın 5-də ölkəmizlə bağlı bədnam qətnamə qəbul edib. Eyni zamanda, bu, həmin Abel Aqanbekyan, bu, həmin Fransa, bu, həmin fransız mediasıdır. Uğursuzluğa düçar olmalarına baxmayaraq, yenə də öz əməllərindən qalmırlar. Ancaq Ermənistanda və ondan uzaqda revanş haqqında düşünən qüvvələr Prezident İlham Əliyevin təbirincə desək, Vətən müharibəsini, antiterror tədbirlərini unutmamalıdırlar. Onlar, nəhayət, son hadisələrdən dərs götürməlidirlər.

*Səxavət HƏMİD*
*XQ*

### Ekspert rəyi



**Rizvan HÜSEYNOV,**
**Qafqaz Tarixi Mərkəzinin direktoru**

**– Erməni layihəsinin arxasında dayanan qüvvələrdən biri də elə Fransa və bəzi katolik mərkəzlərdir. Fransa həmişə erməni dini icmalarının vasitəsilə istər Osmanlı, istər Səfəvilər, sonra Qacarlar dövləti ərazisində, yaxud Qafqazda öz maraqlarını təmin etməyə çalışırdı. Fitnə-fəsadı da həmin erməni icmalarının əli ilə törədirdi. "Böyük Ermənistan" nağılının arxasında da bəzi Fransa ideoloji mərkəzləri dayanır. Həmin ideologiyanın formalaşması XVIII-XIX əsrlərə təsadüf edir. Burada Fransanın müstəsna rolu var. Fransızlar orta əsrlərdə "səlib yürüşləri" zamanı öz maraqları üçün Yaxın Şərqdəki erməni icmalarından istifadə ediblər. Erməni icmaları onlara "səlib yürüşləri" zamanı böyük dəstək veriblər. Ona görə də fransızlarla ermənilər arasında ənənəvi çoxəsrlik isti münasibətlər var.**

**Fransa SSRİ-nin dağılması ərəfəsində "erməni kartı"ndan istifadə etdi. Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Aqanbekyanın Qarabağın Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistanın tərkibinə verilməsinin iqtisadi cəhətdən düzgün olmasına dair fikirləri isə acı gülüş doğurur. İqtisadçı olan Aqanbekyan ağ yalan danışırdı. O, illər sonra jurnalistə səhv fikirdə olduğunu bildirmişdi. Qarabağ ermənilərinin düşdükləri rəzil vəziyyətdə Aqanbekyan kimiləri birbaşa məsuliyyət daşıyırlar. Həmin bu şəxslər Fransanın və digərlərinin dəstəyi ilə hər şeyi etdilər ki, Qarabağ erməniləri və ümumən ermənilər indiki rəzaləti yaşasınlar.**

**Qarabağa ən böyük və qanlı terror dəstəsini gətirən də Fransada həbsdən azad edilən Monte Melkonyandır. Bu beynəlxalq terrorçu 1980-ci illərdə Orli aeroportunda terror aktları törədərək elə fransızları qətlə yetirmişdi. Həmin terror aktında məqsəd türk diplomatlarını öldürmək idi, ancaq nəticədə fransızlar da həlak oldular. O, cəza çəkməsinə baxmayaraq, Qarabağ münaqişəsinin qanlı fazası başlayan kimi Fransa rəhbərliyi onu həbsdən buraxdı. O, Yaxın Şərqdən olan bir qrup qanlı terrorçu dəstə ilə sovet vaxtı Ermənistana, oradan da Qarabağa gəldi. Ona görə də Fransa Azərbaycan xalqının başına gələn bu fəlakətlərdə müstəsna rol oynayıb. Bu gün də Paris bu murdar siyasətindən əl çəkmir. Şübhə yoxdur ki, onların Qarabağda, Ermənistanda olan əlaltıları cəzalarını aldıqları kimi, özləri də cəzalarına çatacaqlar.**

# Prezident İlham Əliyevin Xankəndi səfəri dünya mediasında

**Prezident İlham Əliyevin oktyabrın 15-də Xankəndiyə, həmçinin Qarabağın digər rayon və şəhərlərinə səfəri, orada ölkəmizin üçrəngli bayrağını ucaltması və çıxışında səsləndirdiyi fikirlər dünya mediası tərəfindən geniş işıqlandırılıb.**




AZƏRTAC xəbər verir ki, Türkiyənin Anadolu Agentliyi, “TRT Haber”, “NTV”, Haber Global, “Hürruyet”, “CNN türk”, “İHA”, “Sözcü”, “Habertürk”, “YeniAkit”, “Yeniçağ”, “Sabah” və bir çox digər media qurumları tərəfindən yayımlanan xəbərlər “XankəndidəAzərbaycanBayrağı ucaldıldı”, “Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Bayrağını Xankəndidə və Xocalıda qaldırıb” kimi başlıqlarla verilib.

“Sabah” portalının yaydığı məlumatda Prezident İlham Əliyevə istinadla bildirilib: “Burada (Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin binası – red.) oturmuş özünü “prezident” adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü “baş nazir” adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir”.

“Sözcü” qəzetində yer alan yazıda isə Azərbaycan Prezidentinin Xankəndi şəhərindəki çıxışından bu sitat gətirilib: “Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir”.

Rusiyanın “Moskovski komsomolets” nəşri bu xəbəri Azərbaycan Prezidentinin rəsmi saytına istinadla yayıb. Eyni zamanda, nəşr Prezident İlham Əliyevin Ağdərədə də Azərbaycan Bayrağını ucaltdığını qeyd edib.

TASS agentliyi yazır ki, 20 il əvvəl məhz bu gün İlham Əliyev Azərbaycan Prezidenti seçilib. Dövlətimizin başçısının Xankəndidəki çıxışından fikirlərə yer ayıran agentlik qeyd edir ki, Prezident İlham Əliyev 20 il əvvəl xalqa müraciətində Azərbaycan xalqının və dövlətinin maraqlarını daim qoruyacağına söz vermişdi. “

“Vedomosti”, “Arqumentı i faktı” nəşrlərində Prezident İlham Əliyevin Xankəndidə Dövlət Bayrağını ucaltmasını mühüm hadisə kimi qiymətləndirib. Materiallarda qeyd olunur ki, Azərbaycan Prezidentinin Administrasiyası Qarabağın erməni əhalisinin reinteqrasiyasının ətraflı planını təqdim edərək, onların bütün hüquqlarının və təhlükəsizliyinin təmin olunacağına vəd verib.




Azərbaycan Prezidentinin Qarabağa səfəri Bosniya və Herseqovina mediasının diqqət mərkəzində olub. Bu ölkənin “Fena”, “Slobodna Bosna”, “Federalna”, “Dnevnik”, “Avaz”, “Vijesti” və “Hayat” kimi informasiya agentliklərinin yaydığı xəbərlərdə Prezident İlham Əliyevin Xankəndi şəhərinə səfərinə geniş yer ayrılıb.

Serbiyanın “Tanjug”, “Danas”, “Politika”, “24 Sedam”, “Blic”, “Pravda”, “Nova”, “Vesti”, “Srbija Danas”, “n1info”, “NSPM”, “021.rs” kimi informasiya agentlikləri və xəbər portallarında, eləcə də Rumıniyanın “StiriPeSurse” xəbər portalı, “Financialİntelligence”, “Viata Libera” nəşrləri, “Agerpres” milli xəbər agentliyi, “Mediafax” informasiya agentliyi, “Digi 24” televiziya kanalı və digər nüfuzlu media orqanlarında yayılan materiallarda da Prezident İlham Əliyevin Azərbaycanın üçrəngli Dövlət Bayrağını Qarabağın ən böyük şəhəri olan Xankəndidə ucaltdığı və çıxış etdiyi vurğulanır.

Fransanın “lorientlejour.com və Əlcəzairin “algerie9.com” portalları da Azərbaycan Prezidentinin Qarabağın bir çox şəhərlərində Azərbaycan Bayrağını ucaltmasına dair informasiyalar yayıblar.

Azərbaycan Prezidentinin Xankəndiyə səfəri Moldova KİV-ləri tərəfindən də geniş işıqlandırılıb.

# Şimali Kipr Prezidenti Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda

**Azərbaycanda səfərdə olan Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar oktyabrın 16-da Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunu ziyarət edib.**



Dövlət başçısı ziyarət çərçivəsində fondun prezidenti Günay Əfəndiyeva ilə görüşüb.

G.Əfəndiyeva Şimali Kipr Prezidentinə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyəti barədə məlumat verib.

E.Tatar isə qeyd edib ki, Şimali Kiprin tezliklə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun üzvü olacağına ümid edirlər: "Biz birlikdə bir çox işlərə imza atacağıq”.

Xatırladaq ki, Şimali Kipr Prezidenti Ersin Tatar oktyabrın 12-də 200 nəfərdən ibarət nümayəndə heyəti ilə Azərbaycana səfər edib. Səfər bu gün başa çatacaq.

# Ersin Tatar ölkəsinin nümayəndəliyində

**Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar oktyabrın 16-da Şimali Kiprin Azərbaycandakı nümayəndəliyinin binası ilə tanış olub.**

Nümayəndəliyin rəhbəri Ufuk Turganer Prezidentə binada yaradılan şərait barədə məlumat verib.

Qeyd edək ki, Şimali Kipr Türk Respublikasının Bakıdakı nümayəndəliyi 1997-ci ildən fəaliyyət göstərir.

Xatırladaq ki, Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar ölkəmizə səfəri çərçivəsində bir sıra görüşlər keçirib, tədbirlərdə iştirak edib, dünya mədəni irs abidələri sırasında yer alan İçərişəhər və Heydər Əliyev Mərkəzi ilə tanış olub.

**XQ**

# Sülhməramlıların 1 məntəqəsi də bağlanıb

**Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingenti daha bir müşahidə məntəqəsini ləğv edib.**

Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.

Qurumdan bildirilib ki, sentyabrın 19-dan Rusiya sülhməramlılarının ümumilikdə 8 müşahidə və 15 müvəqqəti müşahidə məntəqəsi bağlanıb.

**XQ**

Məmməd Araz – 90

# Haqqın var yaşamağa...

**Elə bir qələm tutan, söz xiridarı yoxdur ki, onun şeirlərini əzbər bilməsin. Kitabları hər zaman masamızın üstündə, misraları dilimizin əzbərində olub. Bu gün də oxuyuruq, sevə-sevə sitat gətiririk. Haqqı var yaşamağa, bu əbədiyyəti öz sözü, qələmi, şəxsiyyəti ilə qazanıb Xalq şairi Məmməd Araz.**



Yubileyi ərəfəsində onu şəxsən tanıyan, adına ustad deyən qələmdaşları ilə xatırladıq:

**Yazıçılar Birliyinin sədr müavini:**

–“1982-ci ildə ilk dəfə Aqil Abbasın vasitəsilə Məmməd Arazı gördüm. Təəssüf ki, bu görüş onun sağlam, gur səsi ilə şeir deyən vaxtına yox, artıq xəstələnmiş halına təsadüf etdi. Mənim sevimli şairim idi, “Dünya sənin, dünya mənim” kitabını başdan-ayağa əzbər bilirdim. “Qonşu çəpəri”, “Mehmanxana xidmətçisi” kimi böyük şeirlərini indi də eşidəndə söyləyənə qoşulub əzbərdən deyirəm.

1984-cü ildə Aqil Abbasla mən Məmməd Arazı ailəsi ilə birlikdə Ağdama apardıq. O vaxtkı Bakı–Xankəndi qatarına Ağdama qədər bilet aldıq, Gülxanım xanım, İradə xanım, balaca Toğrul və Tuncayla Ağdama gəldik. Aqilin atasıgildə qalırdılar və Məmməd Araz Ağdamda bircə bizə qonaq gəldi. Atam Ağdamda şəhər ticarətinin müdiri idi, kitab oxuyan, ziyalı adam olub. Evimizin bir divarı kitab rəflərindən ibarət idi. Məmməd Araz bu mənzərəyə heyrətlənmişdi. Ordan Şuşaya getdik, Cıdır düzünü, İsa bulağını gəzdik. Məmməd Araz o vaxta qədər də oralarda olmuşdu, amma İsa bulağına düşmədi, maşından baxdı. Nə qədər dedik, düşmədi, “görən olar”– dedi. Sonralar anladım ki, oralarda şux vaxtlarında olub, şeir məclislərində çıxışlar edib, indi isə səsinin xırıltılı ilə çıxan halında onu kimsənin görməyini istəməyib. Həmin yerdə bir bənd şeir də demişdim:

*İsa bulağının sərin suyundan*
*Yaxın gəl, əyil iç, bu da bir dərman.*
*Yaxın gəl bir az, bu səs-küydə səni*
*Şair Məmməd Araz, tanıyan olmaz.*

Bu şeir elə orda da bir bəndli qaldı mənim yaddaşımda. Həmin səhnə də gözlərimin önündən silinmir. 20 yaşımda o səhnəni dərk etməyim mümkün deyildi, sonralar anladım. Həmin illər Məmməd Arazın ən gözəl şeirləri qələmə alınıb:

*Çox tozanaq atlını təmkin atınla keçdin,*
*Sel boğan dərələri bir mərd qadınla keçdin,*
*Bütün keçilməzliyi, vətən, adınla keçdim*
*Haqqın var, Məmməd Araz,*
*Haqqın var yaşamağa...*

Məmməd Araz dünyasını dəyişən gün mənim üçün çox ağır oldu. Yaşadığı evin həyətindəcə donub qalmışdım. İradə xanımı görəndə günahkar kimi baxdım, bu yaxınlarda bir məqaləsində yazmışdı ki, Rəşadın o gözləri yadımdadır. Bizim üçün böyük itki oldu onun yoxluğu, amma yazdıqları əbədi yaşayacaq, Azərbaycan ədəbiyyatına, dilinə töhfə verəcək.

**Yazıçı Seyran Səxavət:**

– “Məmməd Araz təpədən-dırnağa söz idi, ona görə də bənzərsiz bir Azərbaycan şairidir. Odla-alovla, sevgi ilə, darıxmaqla dolu adam idi. Bunlar hamısı onun gözlərindən oxunurdu. Bizdən 12 yaş böyük idi, amma bizə elə gəlirdi ki, Füzuli ilə yaşıddır. Gənclərə qarşı son dərəcə diqqətli idi. Universiteti bitirəndən sonra mənim təyinatımı Bişkek şəhərinə vermişdilər, orda gündə 6 saat tərcümə ilə məşğul olurdum. Öz jurnallarımıza abunə olmuşdum. Bir də baxdım ki, “Ulduz” jurnalında Məmməd Arazın məqaləsi çıxıb. Yazır ki, Seyran Səxavət niyə ədəbiyyatdan qaçaq düşüb, görünmür? Bizim ədəbi nəsil onun gözündə gənc nəsil hesab olunurdu. Nə boyda ürək sahibi olmalısan, özünə inamlı olmalısan ki, başqasının yazdığı bir gözəl şeirə özün yazıbsanmış kimi sevinəsən! Bunu ancaq bu misraları yazan edər:

*İstedad dünyanı dolaşar, gəzər*
*Göyərdər toxumu daş üstündə də.*

Onun istedadı daş üstündə göyərən istedadlardandır.

Məmməd əmi haqqında xatirələrim bitməz. Azərbaycan poeziyasında onsuz çox böyük boşluq olardı. Mən onu çox sevirəm. Məmməd Arazdan xatirə olmaz, o, çox nəhəng biridir.

**Şair Hidayət Elvüsal:**

– Məmməd Araz Kəlbəcərdə bizim qonağımız olub. Qardaşım, şair Sücaətlə dost idilər. Məndə bir dağ üstündə çəkilmiş şəkilləri də vardı. Məmməd əmi "Salamat qal", "Gələcəyəm, Tərtər çayı" və başqa şeirlərini bizdə qonaq olarkən yazıb, ümumiyyətlə, bir silsilə şeir məhz orada yazılıb.

"Azərbaycan təbiəti" dərgisində bir yazımı dərc eləmişdi. "Ovçular evi"ndə yaradılmış təbiət muzeyindən yazmışdım. Görünür, çox təsirlənibmişəm. Qarşılaşanda gülümsədi:

– Kəlbəcər üçün elə mən də darıxmışam, – dedi. – Çox heyrətlə yazmısan. Muzeydən yox, muzeydəki qayalardan, dağlardan, bulaqlardan, elə bil heç görməmisən .

Sücaətlə həmişə maraqlanırdı. Məndən təzə şeirlərini istəyirdi. Ümumiyyətlə, Kəlbəcəri çox sevirdi. Söz düşəndə xatirələrini danışırdı. Oralar işğal olunanda şair çox sarsılmışdı:

– Dünyanın bilmədiyi təbiət muzeyini xaraba qoyacaqlar, – dedi.

Allah ona rəhmət etsin, yeri çox görünür.

*Hazırladı:*
*R.QURBANLI*
*XQ*

# Fransada irqçi zorakılıq

**Fransada yerləşən Afrika Mundus beyin mərkəzinin rəhbəri, Fransanın "Thesee" kommunasının bələdiyyə üzvü Emmanuel Argo həmkarlarının irqçi hücumlarına məruz qalır və ölümlə hədələnir.**



Müstəmləkədən əziyyət çəkən insanlara təzminatın ödənilməsi məsələsini qabardaraq, bu barədə Bakıda danışdığını qeyd edən E.Argo irqçi hücumlarla bağlı Fransa Prezidenti Emmanuel Makrona açıq məktub ünvanlayıb.

Xatırladaq ki, E.Argo bu ilin iyul ayında Bakı Təşəbbüs Qrupunun yaradılmasına həsr edilmiş tədbirdə iştirak edib.

Müraciətə 17 vətəndaş cəmiyyəti və afrikalıların haqlarının qorunması sahəsində iş aparan şəxslər də qoşulub.

Məktubda bildirilib ki, Fransada Afrikadan və bəzi ölkələrdən olan məmurlar həmkarları tərəfindən diskriminasiya və irqçi zorakılığa məruz qalırlar.

E.Argo gördüyü münasibətin Fransanın müstəmləkəçilik keçmişindən qalmış ikili standartların bir parçası olduğunu vurğulayıb. O qeyd edib ki, Fransa digər ölkələrə demokratiya dərsi verir, ancaq özü həmin dərsləri yaxşı öyrənməyib.

**XQ**

# Yaxın Şərq: sülh çağırışları artır

## Bu istiqamətdə gözləntilər hələlik özünü doğrultmur

**Son günlər Qəzza zolağında gərginliyin eskalasiyası baş verir. Qlobal mediada bölgədəki ağır vəziyyətlə bağlı narahat xəbərlər dolaşır. Bir çox liderlərin sülh ilə bağlı səyləri hələlik real nəticə vermir.**



Dünən İsrail Müdafiə Ordusu HƏMAS-ın əsas aparıcı qüvvələrindən olan "Nuxba"nın komando mərkəzini dağıdıb. Bu barədə İsrail Müdafiə Ordusu məlumat yayıb. Bildirilib ki, son bir neçə saat ərzində yaraqlıların onlarla hərbi komandanlıq mərkəzi və minaatan məntəqəsi məhv edilib.

Xatırladaq ki, bir neçə gün əvvəl İsrail Müdafiə Ordusu Qəzzada "Nuxba" komando mərkəzinin komandiri Əli Qadinin öldürüldüyünü açıqlamışdı. HƏMAS rəhbərliyi bu xəbəri nə təsdiq, nə də təkzib edib. Bu arada İsrailin müdafiə naziri Yoav Qalant bildirib ki, müharibə ərazidəki bütün yeraltı tunellər və HƏMAS silahlıları məhv edilənə qədər davam edəcək.

Böyük Britaniyanın "The Times" nəşri isə bu və digər bəyanatlara əsasən iddia edir ki, İsrail Qəzzada güclü və davamlı müharibəyə hazırlaşır. Rəsmi Təl-Əviv bildirir ki, hazırda Həmasın əsirliyində 155-dən 199-a qədər girov var. İsrail hökuməti onların qeyd-şərtsiz azad edilməsini tələb edir. HƏMAS, öz növbəsində İsrail həbsxanalarında 4 min 500-ə yaxın fələstinlinin saxlanıldığını iddia edir.

Fakt budur ki, hər iki tərəfdən itkilər artır. Dünən axşam saatlarında yayılan məlumata görə, HƏMAS-ın bu il oktyabrın 7-də başladığı qəfil hücumdan ötən 10 gün ərzində 1400-dən çox İsrail vətəndaşı öldürülüb. İsrail Ordusunun cavab əməliyyatları nəticəsində Qəzza zolağında 2 min 700-ə yaxın adam həlak olub. Ərazidə məskunlaşan ailələrin su, elektrik, ərzaq təchizatı dayandırılıb, internet və digər kommunikasiyalar işləmir.

BMT rəsmisi bildirib ki, regionda gərginliyin azaldılması üçün davamlı müzakirələr aparır. Hələlik real nəticələr yoxdur.

Son günlər bir çox dünya liderləri HƏMAS–İsrail müharibəsinin dayandırılması üçün ciddi səylər göstərirlər. Dünən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Böyük Britaniyanın Baş naziri Rişi Sunakla bölgədəki gərgin vəziyyəti müzakirə edib. Ankara ilk gündən sülh danışıqlarında vasitəçilik etməyə hazır olduğunu bildirib. Kreml də bu istiqamətdə xeyli fəallaşıb. Dünən Rusiya Prezidenti Vladimir Putin Suriya və İran prezidentləri ilə danışıb. Onun dünən axşam Misir, Fələstin prezidentləri, eləcə də İsrailin baş naziri ilə telefon təmasları olmalı idi.

ABŞ Prezidenti Cozef Baydenin isə oktyabrın 18-də İsrailə səfər edəcəyi bildirilir. Birləşmiş Ştatlar liderinin İsrailin Baş naziri Benyamin Netanyahu ilə görüşü gözlənilir. Ağ ev hələlik bu məlumata münasibət bildirməyib. ABŞ-ın dövlət katibi Antoni Blinken isə son bir neçə gün ərzində Yaxın Şərqin bir neçə aparıcı ölkəsində səfərdə olub. Gündəmdə, təbii ki, müharibənin dayandırılması və sülh danışıqlarının başlanmasıdır. Ağ ev münaqişənin genişlənmək ehtimalından narahatdır. Blinken Təl-Əvivdə İsrailin Baş naziri Binyamin Netanyahu ilə yenidən görüşüb. Görüşdə İsrailin xarici işlər naziri Eli Koen və digər rəsmi şəxslər də iştirak ediblər. Qeyd edək ki, A.Blinken bu ayın 13-də də İsraildə səfərdə olub. Rəsmi Vaşinqton HƏMAS-la müharibədə Təl-Əvivi tam dəstəklədiyini bildirir, eyni zamanda tərəfləri sülh danışıqlarına çağırır.

Qəzza zolağında isə humanitar böhran günbəgün dərinləşir. Bir neçə gündür ki, bir sıra ölkələrdən bölgəyə göndərilən ərzaq və digər zəruri yardımlarla dolu maşınlar Misirin "Rəfah" keçid məntəqəsi qarşısında icazə gözləyir. Misir hökuməti çıxılmaz vəziyyətə son qoymaq üçün diplomatik səyləri artırdığını bildirib. Dünən Təl-Əvivdən Qahirəyə gələn Blinken jurnalistlərə açıqlamasında bildirib ki, onun Misir Prezidenti Əl-Sisi ilə "çox gözəl danışıqları" olub: "Biz bunu həyata keçirdik, Misir Qəzza zolağındakı insanlara əhəmiyyətli maddi dəstək verdi və "Rəfah" yenidən açılacaq".

Bir çox ərəb dövlətləri İsraili cəza tədbirlərini gücləndirməkdə suçlayırlar. Məsələn, Misir Prezidenti hesab edir ki, İsrailin HƏMAS-ın hücumuna reaksiyası özünümüdafiə hüququndan "kənara çıxıb" və Qəzza zolağında 2,3 milyon insan üçün "kollektiv cəza"ya çevrilib. Misirin xarici işlər naziri Sameh Şukri isə CNN-ə müsahibəsində bildirib ki, əgər xarici vətəndaşlar İsrail tərəfdən sərhədi keçə bilsələr, Misir hökuməti onların vətənlərinə qayıtmalarına kömək edəcək.

Misirin Qızıl Aypara Cəmiyyətinin məlumatına görə, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya, Tunis və Ümumdünya Səhiyyə Təşkilatından yardım daşıyan 8 təyyarə bu günlərdə Sinay yarımadasındakı "Əl Ariş" hava limanına enib, 100-dən çox yük maşınından ibarət karvan isə sərhəddə Qəzzaya daxil olmaq üçün icazə gözləyir.

Göründüyü kimi, dünya birliyi Yaxın Şərqdə baş verən zorakılıqların fərqindədir və münaqişənin danışıqlar yolu ilə həlli üçün çalışır. Təəssüf ki, diplomatik səylər hələlik real nəticə vermir. Ümid edək ki, sonda sağlam düşüncə üstün gələcək. Axı, ən kövrək sülh müharibələrdən, ölüm-itimlərdən daha yaxşıdır.

***M.HACIXANLI***
***XQ***

# Baş prokurorun Türkiyə Ali Məhkəməsinin sədri ilə görüşü



**Oktyabrın 16-da Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Ali Məhkəməsinin sədri Mehmet Akarca ilə görüşüb.**

Qonaqları salamlayan Baş prokuror qardaş Türkiyə ilə xalqımızın Ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və türk xalqının Ulu öndəri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" fəlsəfəsi ilə tarixən milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdiyini bildirib. Baş prokuror hər iki dövlətin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasəti nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qaldırıldığını qeyd edib.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Mehmet Akarca ölkələrimizin prokurorluq, məhkəmə və ədliyyə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirərək Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı sevincini bölüşüb.

**XQ**



# "Cəsarətin Sultanı" – döyüşçülərin "Dədəsi"

**Sumqayıtda Birinci Qarabağ müharibəsi qazisi, "Azərbaycan bayrağı" ordenli Sultan Bəndəliyevin 80 illik yubileyi qeyd edilib.**

Döyüş meydanlarında mərdliklə vuruşaraq ad qazanmış Sultan Bəndəliyev Sumqayıtda hər kəsin hörmət-izzətlə yanaşdığı ağsaqqal qazidir. Hamı onu əsl vətənpərvər, prinsipial bir insan kimi tanıyır. Müharibədə bir ayağını itirsə də, həyatda özünə çoxlu arxa-dayaq tapıb Sultan kişi.

Sumqayıt Dövlət Dram Teatrında keçirilən yubiley tədbirində şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov, Milli Məclisin deputatı İmamverdi İsmayılov, şəhid ailələri, qazilər, yubilyarın yaxınları, şəhər ictimaiyyətinin nümayəndələri iştirak edirdilər. Əvvəlcə Sultan Bəndəliyevə həsr olunmuş "Cəsarətin Sultanı" adlı film nümayiş etdirildi, ardınca vətənpərvərlik mövzusunda qısa tamaşa təqdim olundu.

Sonra Sumqayıt şəhər İcra Hakimiyyəti başçısının 1-ci müavini Teymur Səmədov, Vətən müharibəsinin iştirakçısı, "Qarabağ" ordenli polkovnik-leytenant Ehtiram Məmmədov, Sumqayıt Şəhər Veteranlar Şurasının sədri, şəhid atası Sovet Şükürov və yubilyarın döyüş yoldaşları çıxış edərək, onun üstün keyfiyyətlərindən, döyüş rəşadətlərindən danışdılar və ən xoş arzularını bildirdilər.

Sultan Orduxan oğlu Bəndəliyev Laçın rayonunun Novruzalılar kəndində anadan olub. Azərbaycan Politexnik İnstitutunun (indiki Texniki Universitet) mexanika fakültəsinə qəbul olunub. Elə həmin il ordu sıralarına çağırılıb. Kazan şəhərində Kiçik Komandirlər Məktəbini bitirərək Almaniyadakı sovet qoşun kontingentinin tərkibində xidmətdə olub. Beləliklə, həyatını hərb işinə həsr etməyi qərara alan Sultan daha sonra Kalininqrad Ali Hərbi Komandirlər Məktəbinə göndərilib.

Zabit kimi Vətənə qayıdan Sultan Bəndəliyev o zamankı Zaqafqaziya Hərbi Dairəsinin Göytəpə ərazisində yerləşən hərbi hissəsində xidmətə davam edib. Qüsursuz qulluq nümunəsi, zabit bacarıqları nəzərə alınaraq, Almaniyadakı 3-cü Zərbə Ordusuna xidmətə göndərilib. Dəfələrlə Kuba, Fələstin və Somalidə hərbi ezamiyyətlərdə olub. Daha sonra onun xidmət yolu Ukraynadan və Əfqanıstandan keçib. 1984-cü ildə yenidən Zaqafqaziya Hərbi Dairəsinə qaytarılıb və xidmətini Bakıdakı Hərbi Hava Qüvvələrinin tərkibində davam etdirib.

Qarabağ münaqişəsi başlananda artıq ehtiyatda olan zabit Sultan Bəndəliyev yenidən hərbi libasını geyinib və Azərbaycanda ilk özünümüdafiə batalyonlarının yaradılmasında iştirak edib. 1992-ci ilin fevralından başlayaraq, Ağdamda hərbi hissənin formalaşdırılmasına və rabitə qurğularının yaradılmasına yaxından köməklik göstərib. Döyüşlərin qızğın vaxtında həmin hərbi hissənin qərargah rəisi kimi mühüm əməliyyatlarda fərqlənib. Abdal-Gülablı, Aranzəmin, Naxçıvanik, Pircamal kəndləri istiqamətində baş tutan əməliyyatlar zamanı 60-dan artıq erməni hərbçisinin məhvinə, 27 nəfərin isə əsir götürülməsinə nail olub. Eyni zamanda, onun fəal iştirakı ilə bir neçə ağır texnika, 2 BMP, çoxlu qumbaraatan və s. qənimət kimi ələ keçirilib.

Yetkin zabitə döyüş dostları "Dədə" deyə müraciət edirdilər. Peşəkar hərbçilər Əfqanıstan və Qarabağ döyüşlərində iştirak etmiş zabitləri bu adla çağırırlar. Elə yubiley tədbirində söz alan keçmiş zabitlər də Sultan Bəndəliyevin döyüşdüyü yerlərdə tabeliyində olan bütün əsgərlərə ata qayğısı göstərdiyini söyləyərək, onun əsl "Dədə" olduğunu vurğuladılar.

Qeyd olundu ki, 1993-cü ilin dekabrında minaya düşən Sultan Bəndəliyevin sol ayağını hospitalda amputasiya etməli olublar. Tərxis edildikdən sonra o, bütün gücünü gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi işinə həsr edib, istefada olan polkovnik-leytenant kimi, özünün hərbçi estafetinə sadiqliyi ilə seçilib.

Yubilyar veteran Silahlı Qüvvələrimizin 2020-ci ildə 44 günlük "Zəfər yürüşü" ilə Qarabağı işğaldan azad etməsindən, Laçının, Ağdamın, Şuşanın... böyük rəşadətlə geri alınmasından hədsiz məmnun olduğunu söylədi. Bu ilin sentyabrında isə 24 saatdan da az çəkən antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyünün tam təmin edilməsini o, öz yubileyinə ən gözəl hədiyyə saydığını bildirdi: "Bu günlərdə möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin Xankəndidə, Xocalıda, Xocavənddə, Sərsəng Su Anbarında Azərbaycan bayrağını qaldırmasını görmək hər bir soydaşımız kimi, mənim üçün də ən böyük xoşbəxtlikdir. Deməli, havayı yerə o müqəddəs torpaqlarda şəhidlər verməmişik, can qoymamışıq, sağlamlığımızı itirməmişik".

Daha sonra yubilyar səhnəyə dəvət olunub, təşkilatçılara minnətdarlığını bildirib. Sumqayıt Şəhər İcra Hakimiyyəti adından Sultan Bəndəliyevə hədiyyə təqdim olunub.

...Tədbirdə vətənpərvərlik mövzusunda mahnılar səsləndirilib.

**Ə.DOSTƏLİ**
**XQ**


Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin
**Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
Respublika İncəsənət Gimnaziyası binasının əsaslı təmiri işlərinin satınalınması üçün
**AÇIQ TENDER ELAN EDİR**

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərsiniz:
Əlaqələndirici şəxs – Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 1500,0 (bir min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı
Kod: 805603
VÖEN: 9900001881
M/h: AZ03NABZ01350100000000002944
S.W.I.F.T. İBAZAZ 2X
H/h: AZ88IBAZ38030019441856517211
VÖEN: 1500016711
İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 01.10.2023-cü il tarixindən sonra alınmış arayış qəbul ediləcəkdir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.10.2023-cü il tarixindən sonra alınmış arayış təqdim edilməlidir);
- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;
- iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olması barədə məlumat (vergi orqanı və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış. 01.10.2023-cü il tarixindən sonra alınmış arayış təqdim edilməlidir);
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN Xidmət" Mərkəzlərindən 01.10.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;
- iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Müvafiq məlumatlar tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);
- iddiaçının baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- iddiaçının maddi texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilində tərcümə olunmalıdır);
- iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);
- tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 (otuz) bank günü çox olmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmalar haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 22 noyabr 2023-cü il saat 15:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 30 noyabr 2023-cü il 11:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 01 dekabr 2023-cü il saat 15:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

20 illik marafon



# Azərbaycan idman zəfərləri zirvəsində

**Taleyin hökmü ilə Prezident İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin 20-ci ili Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilinə təsadüf etmişdir. Əlbəttə ki, bu, xoş məqamdır. Üstəlik də, Ümummilli liderin uzun illər ərzində yorulmaz fəaliyyəti ilə həyatın bütün sahələri kimi, idmanın da inkişafı naminə göstərdiyi böyük xidmətlər, bunun da əsasında yaranmış gözəl ənənələr bu gün İlham Əliyev tərəfindən layiqincə davam etdirilib, daha da zənginləşdirilir.**

Son iyirmi ildə Azərbaycan idmanında baş vermiş xoş dəyişiklikləri, paytaxt Bakı ilə yanaşı, respublikamızın digər şəhər və rayonlarında, o cümlədən, erməni işğalından tamamilə azad olunmuş gözəl və məğrur Qarabağımızda inşa edilən müasir idman bazalarını, dünya və Avropa çempionatlarında, Olimpiya və Paralimpiya Oyunlarında qazanılmış qələbə və medalları, onların sahiblərini xatırlayanda çox şey yada düşür. Bu hadisələrin hamısını bir qəzet məqaləsinə sığışdırmaq, təbii ki, mümkün deyil. Ancaq bəzi nadir məqamlar üzərində dayanıb, onları xüsusi qeyd edək.

Ondan başlayaq ki, İlham Əliyevin ölkəyə rəhbərliyinin elə birinci ilində Beynəlxalq Olimpiya Komitəsinin (BOK) mənzil-qərargahından alınan bir xəbər dövlət başçısının idmanın, beynəlxalq olimpiya hərəkatının inkişafına göstərdiyi qayğının xoş müjdəçisi oldu. Həmin xəbərdə bildirilirdi ki, Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri cənab İlham Əliyev Beynəlxalq Olimpiya Komitəsi rəhbərliyinin yekdil qərarı ilə idmanın, olimpiya hərəkatının inkişafına verdiyi töhfəyə, bu mühüm işə sədaqətlə xidmət etdiyinə görə BOK-un ali mükafatı Olimpiya Ordeninə layiq görülmüşdür.

Bu qərarın Olimpiya oyunları ili olan 2004-cü ildə, həm də olimpiadaların vətəni Yunanıstanın paytaxtı Afinada qəbul olunması da maraqlı məqam idi. Azərbaycan Prezidenti və Milli Olimpiya Komitəsi rəhbərinin bədən tərbiyəsi və idmanın, olimpiya hərəkatının inkişafına, sağlam və möhkəm gənclərin tərbiyəsinə göstərdiyi qayğı və diqqətə yüksək dəyər verilmişdi. İlham Əliyevin artıq 27-ci ildir ki, Milli Olimpiya Komitəsinə rəhbərlik edib, bütün idman təşkilatlarımızı vahid komanda şəklində birləşdirdiyini də vurğulayaq.

İkinci məqam. 2009-cu ilin sentyabr ayı. Gənclər arasında cüdo üzrə Avropa çempionatı. Burada elə həmin ayın 15-də dərc etdirdiyim "Tatami ustalarımız Ermənistanı əzəmətli Azərbaycan himninin sədaları altında tərk etdilər" sərlövhəli yazıya müraciət etmək istəyirəm:

"İrəvanda gənclər arasında cüdo üzrə Avropa çempionatının sonuncu günü Elmar Qasımovun fantastik qələbəsi həmvətənlərimizin bu çox məsul yarışda parlaq çıxışlarının bəzəyinə çevrildi. Tatami üzərində rəqiblərinə aman verməyən istedadlı cüdoçumuz onların hamısı üzərində vaxtından əvvəl qələbə qazanaraq, fəxri kürsünün zirvəsində dayanmağa layiq olduğunu inamla sübuta yetirdi və 100 kq çəki dərəcəsində onun çempionluğu şərəfinə idman sarayında milli bayrağımız ən yüksəkdə dalğalandı, Azərbaycan himninin əzəmətli melodiyaları səsləndi.

E. Qasımovla yanaşı, onun komanda yoldaşları da çempionatda böyük hünər göstərdilər. İlqar Muşkiyev (55 kq) Vətənə gümüş, Rasim Əsədullayev (60 kq), Fəqan Eminoğlu (66 kq) və Ramin Qurbanov (81 kq) bürünc medallarla qayıtdılar. Onların qələbələri şərəfinə üç gün Azərbaycan bayrağı yüksəyə qaldırıldı, çempionatın finişində isə dövlət himnimiz səsləndirildi".

Bu medallar cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin gündən-günə artan nüfuzunu təsdiq edən daha bir möhtəşəm nailiyyət idi.

Üçüncü məqam. "Bakı-2015"in ən gözlənilməz, heç kimin ağlına belə gələ bilməyəcək anı. Artıq səkkiz ildir ki, bütün dünyada Avropa Oyunlarının vətəni kimi tanınan Azərbaycanda qəlbləri riqqətə gətirən bir məqam…

Birinci Avropa Oyunlarının on beşinci günü, 2015-ci il iyunun 26-da Heydər Əliyev adına İdman Sarayında paralimpiyaçı cüdoçuların turniri başa çatdıqdan sonra tarixdə ilk Avropa Oyunlarının çempionu adını qazanmış İlham Zəkiyev tamamilə gözlənilməz təşəbbüsü ilə bir andaca hamını, sözün yaxşı mənasında, heyrətə gətirdi.

Paralimpiya Oyunlarının ikiqat çempionu, Azərbaycan idmanında ən hörmətli şəxsiyyətlərdən biri olan dünya şöhrətli həmvətənimiz Avropa Oyunlarında bütün rəqiblərinə qalib gələrək yenicə çempion olmuşdu. Tribunadan gərgin mübarizənin gedişini diqqətlə izləyən Azərbaycan rəhbəri İlham Əliyev təşkilatçılar tərəfindən qalibləri mükafatlandırmağa dəvət olundu. Prezident tamaşaçıların alqışları altında qızıl medalı sahibinə təqdim etdikdən sonra İ.Zəkiyev dövlət başçısını da fəxri kürsüyə dəvət etdi və zirvədə onunla yanaşı dayanıb, idman həvəskarlarına möhkəm dəstəyə görə minnətdarlığını bildirdi.

Tarixi məqam idi. Həmin anı "Bakı-2015" birinci Avropa Oyunlarının ən möhtəşəm qələbəsi kimi də qiymətləndirmək olardı. İlham Zəkiyevin uğuru təkcə onun özünün yox, həm də Prezident İlham Əliyevin, bütün Azərbaycan xalqının qələbəsi idi. Belə qələbələr tarixdə əbədi yaşayır. Çempionun hərəkəti isə idman dünyasına nümunə ola bilərdi.

İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin iyirminci ilini həm də olimpiyaqabağı il olan 2023-cü ildə qeyd edirik. İdmanımızın ən yaxşı nümayəndələri gələn il Parisdə keçiriləcək Olimpiya və Paralimpiya Oyunlarında sevimli Vətənimizi, qüdrətli dövlətimizi layiqincə təmsil etmək, onun idman şöhrətini daha yüksək zirvələrə ucaltmaq əzmindədirlər. Əminik, dövlət başçısı, Milli Olimpiya Komitəsi Prezidentinin müdrik rəhbərliyi ilə bu məqsədə də nail olunacaq!

**Oqtay BAYRAMOV,**
**Əməkdar jurnalist**

# BİLDİRİŞ

"Azəristiliktəchizat" ASC-nin xüsusi təmirə (hazırlanmasına) ehtiyacı olan avadanlıqlarının satın alınması məqsədilə 2023-cü il sentyabrın 28-də elektron portal vasitəsi ilə keçirilmiş açıq tenderin nəticələrinə əsasən "Neftqazmaş" ASC qalib elan edilmiş və həmin ASC ilə 2023-cü il oktyabrın 13-də müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin
# Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## Biləsuvar rayonunun, R.Rzayev adına 624 şagird yerlik Nəsimikənd tam orta məktəbinin tikintisi işlərinin satın alınması üçün

# AÇIQ TENDER ELAN EDİR

Açıq tender iştirakçılarına təklif olunur ki, öz təkliflərini imzalanıb möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: -iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi və təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs – Z.Quliyev.
Ünvan- Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi küçəsi 18.
Tel- (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 2000,0 manat (iki min manat) məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.
Bankın adı - "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı
Kod - 805603
VÖEN - 9900001881
M/h - AZ03NABZ01350100000000002944
S.W.I.F.T. İBAZAZ 2X
H/h - AZ88IBAZ38030019441856517211
VÖEN - 1500016711

İddiaçılar açıq tender prosedurunda iştirak üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- tenderdə iştirak üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir ( 2023-cü il oktyabrın 2-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, onda notarial təsdiq edilməsi mütləqdir);
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (2023-cü il oktyabrın 2-dən sonra alınmış arayış təqdim edilməlidir);
- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;
- iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (2023-cü il oktyabrın 2-dən sonra alınmış arayış təqdim edilməlidir);
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 2023-cü il oktyabrın 2-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiqləyən sənədlər;
- iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi və idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- iddiaçı inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə aid son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- iddiaçının maddi - texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilində tərcümə edilməlidir).
- iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün yuxarıda qeyd olunan sənədləri 10 noyabr 2023-cü il saat 12.00-a, tender təklifi və tender təklifinin bank təminatını isə 20 noyabr 2023-cü il saat 12.00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 21 noyabr 2023-cü il saat 12.00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin
# Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## Respublika üzrə bir sıra məktəbəqədər təhsil müəssisələrinin əsaslı təmiri işlərinin satın alınması üçün

# AÇIQ TENDER ELAN EDİR

Açıq tender iştirakçılarına təklif olunur ki, öz təkliflərini imzalanıb möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: --iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi və təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs – Z.Quliyev.
Ünvan- Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi küçəsi 18.
Tel- (+99412) 465 73 48 (daxili 134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 2000,0 manat (iki min manat) məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.
Bankın adı - "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı
Kod - 805603
VÖEN - 9900001881
M/h - AZ03NABZ01350100000000002944
S.W.I.F.T. İBAZAZ 2X
H/h - AZ88IBAZ38030019441856517211
VÖEN - 1500016711

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 2023-cü il oktyabrın 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, onda notarial təsdiq edilməsi mütləqdir);
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (2023-cü il oktyabrın 1-dən sonra alınmış arayış təqdim edilməlidir);
- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;
- iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, icra probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış);
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN Xidmət" Mərkəzlərindən 2023-cü il oktyabrın 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiqləyən sənədlər;
- iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- iddiaçı baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə aid son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;
- iddiaçının maddi - texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir ).
- iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün yuxarıda qeyd olunan sənədləri 17 noyabr 2023-cü il saat 11.00-a, tender təklifi və tender təklifinin bank təminatını isə 27 noyabr 2023-cü il saat 11.00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 28 noyabr 2023-cü il saat 11.00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 226 (30342) 17 oktyabr 2023-cü il, çərşənbə axşamı

İdman xəbərləri

## Millimiz finala çıxıa bilmədi



**AVRO-2024-ün seçmə mərhələsində Azərbaycan yığması növbəti oyununu keçirib.**

Futbol millimiz Bakıda Tofiq Bəhramov adına Respublika stadionunda Avstriya komandasını qəbul edib. Matç qonaqların 1:0 hesablı qələbəsi ilə başa çatıb. Rəqibin heyətində 48-ci dəqiqədə Marsel Sabitzer penalti ilə fərqlənib.

Bununla da aktivində 16 xal olan Avstriya final mərhələsinə çıxıb. Azərbaycan komandası 6 oyundan sonra 4 xalla 4-cü yerdə qərarlaşıb.

## Daha bir şahmatçımız dünya birincisi olub

***İtaliyanın Sardiniya adasında 20 yaşadək şahmatçılar arasında rapid və blits üzrə dünya birinciliklərində Azərbaycan şahmatçıları tarixi nəticə göstəriblər.***



Gövhər Beydullayeva rapid üzrə dünya çempionluğunu qazandıqdan sonra blits yarışında da medal əldə edib. Şahmatçımız bu dəfə bürünc medala sahib olub. Komandamızın daha bir üzvü – Məhəmməd Muradlı isə blits üzrə dünya birinciliyində bütün rəqiblərini üstələyərək qızıl medala yiyələnib.

Xatırladaq ki, bu, Gövhər Beydullayeva üçün ikinci belə böyük uğurdur. Təmsilçimiz ötən il elə həmin adada şahmatın klassik növü üzrə 20 yaşadək idmançılar arasında qalib adını qazanıb.

## Avropa kubokunda boksçularımız 5 medal qazanıblar



***Boks üzrə Azərbaycan millisi Monteneqronun Budva şəhərində keçirilən Avropa kubokunda 1-i gümüş, 4-ü bürünc medal olmaqla 5 mükafat qazanıb.***

Yığma üzvlərindən Malik Həsənov (63,5 kq) finalda Qabil Məmmədovla (Rusiya) üz-üzə gəlib. Təmsilçimiz zədəli halda sonadək mübarizə aparsa da, yekunda rəqib qalib gəlib. Beləliklə, M.Həsənov Avropa kubokunu ikinci yerdə başa vurub. Komandamızın digər üzvləri Tural Sarıyev (48 kq), Tayfur Əliyev (60 kq), Sərxan Əliyev (71 kq) və Mirşərif Kazımzadə (75 kq) bürünc medal qazanıblar.

## Avropa kubokunda bürünc medal



***Azərbaycanın güllə atıcısı Ruslan Lunyov Xorvatiyada keçirilən Lapua Avropa kubokunda uğurla çıxış edib.***

Azərbaycan Atıcılıq Federasiyasından "XQ"yə bildiriblər ki, atıcımız Avropa Atıcılıq Konfederasiyası tərəfindən keçirilən turnirdə bürünc medal qazanıb. Təmsilçimiz bu nailiyyəti 25 metr məsafəyə standart tapançadan atəşaçma yarışında əldə edib.

***Leyla SABİRQIZI***
***XQ***

Festival



# Daşkənddə Azərbaycan dünyası

**Daşkənddəki Dünya Dilləri Universitetinin nəzdindəki Akademik Litseydə "Xalqların mətbəxi və adət - ənənələri" adlı festival keçirilib.**

Tədbirdə Özbəkistanda fəaliyyət göstərən səfirliklər və mədəniyyət mərkəzləri qatılıb. İştirakçılar öz ölkələrinin tarixi, mədəniyyəti, milli mətbəxini təbliğ ediblər. Ölkəmizi bu tədbirdə Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) təmsil edib.

Azərbaycan üçün ayrılan guşədə ölkəmizin bayrağı, dünya şöhrətli siyasətçi Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlarla əlaqədar kitablar nümayiş olunub. Nəşrlər arasında ölkəmizin tarixi, mədəniyyəti, turizm potensialı, ədəbiyyatına dair AMM-nin özbək dilində Daşkənddə çap etdirdiyi nəşrlər, habelə ölkəmizin təbliğinə dair Heydər Əliyev Fondu tərəfindən çap olunan kitablar da yer alıb.

Suvenirlər, milli mətbəximizin nümunələri guşəyə gələnlərin çox xoşuna gəlib. Mədəniyyət Mərkəzinin əməkdaşı Kifayət Pirməmmədova guşəyə gələnlərə ölkəmizin tarixi, Azərbaycan–Özbəkistan dostluğu haqqında məlumat verib, qonaqlar şirniyyatlarımıza qonaq ediliblər.

Mərkəzin nəzdindəki "Azərbaycan qızları" rəqs ansamblının üzvləri milli rəqslərimizi ifa ediblər.

Sonda festivalda aktiv iştirak edənlərə diplomlar təqdim edilib. Diplom alanlar arasında AMM də olub.

***Qulu KƏNGƏRLİ***
***XQ-nin xüsusi müxbiri***
**Daşkənd**

Maqazin

# Pitt Coliyə borcludur

**Dünyaca məşhur aktyor Bred Pitt keçmiş həyat yoldaşı Ancelina Colini rusiyalı oliqarx Yuri Şeflerlə əlbir olmaqda ittiham edib. Bu barədə ABŞ-ın aparıcı KİV-i məlumat yayıb.**



Xəbərlərdə deyilir ki, Bred Pitt 48 yaşlı aktrisa Ancelina Colini Fransadakı "Chateau Miraval" şərab zavodundakı payını özündə saxlamaq naminə rusiyalı oliqarx Yuri Şefler ilə əlbir olmaqda günahlandırır.

Bundan əlavə, Ancelina Coli öz payını Yuri Şeflerə sataraq keçmiş ərinin ona 350 milyon dollar borcu olduğunu iddia edir.

***N.AYTƏN***
***XQ***

HAVA

# Bakıda güclü külək, bölgələrdə leysan

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən oktyabrın 17-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gündüz yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Gündüz güclü şimal-qərb küləyi əsəcək. Gecə 13-16°, gündüz 16-19° isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 80-90, gündüz 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclü olacaq. Havanın temperaturu gecə 9-14°, gündüz 19-24°, dağlarda gecə 0-4°, gündüz 5-10° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

*✓ 2016-cı il iyulun 18-də Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən dərman vasitələrinin pərakəndə satışı üçün "Bakı 977 saylı Aptek" MMC-yə verilmiş 089197 nömrəli lisenziya və onun əlavəsi itdiyi üçün etibarsız sayılır. VÖEN-1302125461.*

*✓ "Naftalan Qənnadı" Açıq Tipli Səhmdar Cəmiyyətinin dairəvi möhürü və künc ştampı itdiyi üçün etibarsız sayılır.*

Sosial şəbəkələrdən seçmələr

# Xankəndim – Cankəndim, gözlərin aydın!

***Bu günlərdə sosial şəbəkələrdə müstəqil Azərbaycanın üçrəngli bayrağının Ali Baş Komandan tərəfindən Xankəndidə ucaldılması ilə bağlı bir-birindən maraqlı çoxsaylı paylaşımlar edilir. Bu əlamətdar hadisə ilə bağlı istedadlı şair-publisist Həzi Həsənli də təsirli bir şeir yazıb:***



*Bu günü görməkçün günləri saydıq,*
*Ucaldı göylərə Xanbayrağımız!*
*Xankəndim - Cankəndim,*
*gözlərin aydın!*
*Yox oldu candakı ağrılarımız...*

*Mənim Xanbayrağım dağlardan uca,*
*Gözəl Xankəndimi nə gözəl bəzər!*
*Bayrağım zirvədə dalğalanınca,*
*Sevincim dünyanı dolanar, gəzər...*

*Sənsən ucalığın arzu qitəsi,*
*Sənsən ucalığın ən son nöqtəsi!*
*Canbayrağım, Xanbayrağım,*
*Zirvədən baxan bayrağım,*
*Düşməni yaxan bayrağım!!!*

**Bakı, 15.10 2023**

***Təqdim etdi:***
***M.HACIXANLI***
***XQ***

Sağlamlıq

# Ədviyyat – sağlam həyat!

**Orqanizmin maddələr mübadiləsi qidalanmaya uyğun yavaşıyır və ya sürətlənir. Mübadiləni sürətləndirən və yağ yandıran ədviyyatlardan azacıq istifadə etmək çəki atmağa bəs edir. Ədviyyatın müntəzəm qəbulu insan üçün daha sağlam həyata qapı açır.**



**Kətan toxumu** pəhriz lifləri, sağlam vitamin və minerallar ilə zəngindir. Toxumun müntəzəm istifadəsi toxluq hissi verir və ödemi götürür. Sağlam həyat üçün səhər və axşam acqarına desert qaşığı ilə kətan toxumu yemək, yaxud salatlara əlavə etmək olar.

**Darçın detoks** sularda daha çox çubuq, desertlərdə isə toz şəklində istifadə edilir. Ödem atır, böyrəkləri təmizləyir və ifrazat sistemini tənzimləyir. Maddələr mübadiləsini sürətləndirdiyindən, yağların yandırılmasını asanlaşdırır, qısa müddətdə arıqladır. Bədəndə qidanın yağa çevrilməsinin qarşısını alır. Yeməyə 1 qaşıq darçın tökmək, xüsusilə, qarın nahiyəsində olan piyləri əridir.

**Qara bibər** süfrələrin imtinaedilməzi olaraq, yağ yandırmağa dəstək verən ədviyyatlar arasındadır. Acı dadı və dominant adı səbəbindən daha az miqdarda istifadə edilən qara bibərin tərkibində boru xətti adlı bir komponent var. Bu komponent yağların yandırılmasını sürətləndirir və çəki balansını qoruyur. Yeməklərdə qara bibərə mütəmadi üstünlük vermək həm arıqladır, həm də çəkini qaydasında saxlayır.

# Şüyüd zob düyününü "üyüdür"

**Qalxanabənzər vəzi xəstəlikləri cəmiyyətdə ən çox rast gəlinən xəstəliklər sırasındadır. Ümumi sağlamlığa təsir etdiyindən bu xəstəliyin daşıyıcıları qidalanmalarına xüsusi diqqət yetirməlidirlər.**



Türkiyəli professor İbrahim Saraçoğlu şüyüdün qalxanabənzər vəzi xəstəliyinin müalicəsində mühüm rolu olduğunu bildirib. O deyib ki, şüyüd müalicəsi tiroid hormonlarını balanslaşdırır və onların sağlam işləməsinə kömək edir. Bundan əlavə, şüyüd bir neçə millimetr ölçüdə olan düyünləri tamamilə yox edir, santimetr səviyyəsində olanları isə kiçildir.

İ.Saraçoğlunun sözlərinə görə, bu müalicə zamanı səhər, günorta və axşam acqarına, yeməkdən 15 dəqiqə əvvəl 1 xörək qaşığı təzə şüyüd çeynənir və 2– 3 qurtum su ilə udulur. Müalicə 3 ay fasiləsiz davam etdirilir. 2-ci aydan sonra tiroid hormonları vaxtaşırı yoxlanılmalıdır. Çünki alınan nəticəyə uyğun olaraq, daimi istifadə edilən dərmanların dozasını azaltmağa ehtiyac yarana bilər.

***Z.HÜSEYNLİ***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə əzizi

**NATİQ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini, deputat Əli Məsimliyə qardaşı

**VAQİF MƏSİMLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4818
SİFARİŞ 2711
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00